RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 265 (9720) 1 dekabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlham Əliyevin qətiyyətli siyasəti nümunəyə çevrilir



## Bölgə dövlətləri Qərbin davamlı təxribatlarına qarşı mübarizədə Azərbaycan modelinə istinad edirlər

**Azərbaycanın yüksəlişinin və nailiyyətlərinin təməlində dayanan həqiqətlərdən biri Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və qətiyyətli siyasətdir. Məhz bu cür siyasi kursun yürüdülməsi Azərbaycana qarşı çıxan Qərbin davamlı şəkildə həyata keçirdiyi qarayaxma kampaniyasının fonunda respublikamızın yüksəlişini və ərazilərimizin işğaldan azad olunmasını təmin edib.**

### Qərbin avantürası Gürcüstanda iflasa uğrayır

Reallıq göstərir ki, bu cür siyasi kursun həyata keçirilməsi xoş mərama xidmət etməyən, cəmiyyətdə neqativ dəyərlərin kök salması məqsədlərini güdən xarici təsirlərin qarşısının alınması, dövlətin sağlam təməllər üzərində bərqərar tutmasının əsas siyasi prinsiplərindən biridir. Vaxtında bunları düzgün dəyərləndirən Azərbaycan dövlətinin siyasi iradəsinin nəticəsi kimi Qərbin ölkəmizlə bağlı bütün məkrli planları iflasa uğrayıb.

Onu da qeyd etməliyik ki, Azərbaycanın yürütdüyü bu siyasət nümunəyə çevrilərək, Qərbin digər ölkələrlə də bağlı riyakar ssenarilərinə zərbə vurur. Gürcüstanda Qərbin neqativ niyyətlərinin və arzuolunmaz təsirlərinin qarşısının alınması istiqamətində ortaya qoyulan qətiyyətli siyasi iradə buna misaldır.

Gürcüstanda oktyabrın 26-da keçirilən parlament seçkiləri Qərbin bu ölkə, nəticə etibarilə isə Cənubi Qafqaz regionu ilə bağlı avantürasını iflasa uğratdı. "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının seçicilərin etimadını qazanması həm də Gürcüstan əhalisinin ölkədə söz sahibi olmaq, onu öz müstəqil yolundan döndərmək istəyən Qərb siyasi dairələrinin və onların maliyyələşdirdiyi qeyri-hökumət təşkilatları üzərində qələbəsi oldu.

Azərbaycanın regiondakı yaxın tərəfdaşı olan Gürcüstanda keçirilən son parlament seçkilərində Cənubi Qafqazı qarşıdurma meydanına çevirmək, buradan Rusiyaya qarşı ikinci cəbhə açmaq istəyən xarici siyasi dairələr darmadağın edildilər. Gürcüstan vətəndaşları əmin-amanlığa və sabitliyə səs verdilər, hakim partiyanı dəstəkləyərək, sülhlə müharibə, ənənəvi və amoral dəyərlər arasında prinsipial seçimlərini etdilər.

→ 4

# Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əlaqələr daha da möhkəmlənir

Dost və qardaş Səudiyyə Ərəbistanı ilə münasibətlərin əsaslarının formalaşdırılmasına Ümummilli Lider Heydər Əliyevin 30 il əvvəl, 1994-cü ildə bu ölkəyə etdiyi rəsmi səfər böyük töhfə vermişdir. Ümummilli Liderin İki Müqəddəs Ocağın Xadimi, mərhum Kral Fəhd bin Əbdüləziz Al Səudla əldə etdiyi razılaşmalarla və iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın ümumi istiqamətlərinə dair imzalanan hökumətlərarası baş sazişlə münasibətlərin möhkəm təməli qoyuldu. Məhz bu fundament üzərində qurulan və son 30 il ərzində iki dövlət arasında inkişaf edən əlaqələr Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən "strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş" münasibətlər kimi dəyərləndirilir. Bu strateji tərəfdaşlığın ikitərəfli yazılı sənəddə də hüquqi baxımdan təsbit olunması aktual və zərurə məsələ kimi diplomatiyamızın qarşısında durur.

Deputat bildirib ki, bu qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin ən bariz göstəricilərindən biri Səudiyyə hökumətinin torpaqlarımızın beynəlxalq hüquqa zidd işğalına uzun illər qlobal diplomatik müstəvidə göstərdiyi dəstək mövqeyi olmuşdur. Azərbaycan Respublikası 2023-cü ilin sentyabrında suverenliyini tam bərpa edənədək Səudiyyə Ərəbistanı Ermənistanla diplomatik münasibətlər qurmamışdır. Bu illər ərzində həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda göstərilən qarşılıqlı dəstək yüksək qiymətləndirilməlidir.

Əlaqələrimizin müsbət dinamika ilə inkişafı və ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 2-3 il ərzində iki ölkə arasında müşahidə olunan qarşılıqlı səfərlər dinamikası buna əyani sübutdur. 2022-2023-cü illər ərzində Səudiyyə Ərəbistanı və Azərbaycan arasında müxtəlif səviyyələrdə qarşılıqlı olaraq 16 səfər həyata keçirillmişdir.

→ 3

# Qərb gürcü xalqının əmin-amanlıq şəraitində yaşamasına imkan vermir

Oktyabrın 26-da Gürcüstanda parlament seçkilərindən sonra Qərbdən idarə olunan müxalifətin heç bir əsas olmadan nəticələrin ləğv olunması və yeni seçkilərin keçirilməsinə yönəlmiş fəaliyyəti ölkədə artıq qarşıdurma yaradıb, vəziyyəti gərginləşdirib. Bu onu göstərir ki, Qərb əvvəlcədən Gürcüstanda rəngli inqilab ssenarisi hazırlayıb. İndi də hansı yolla olursa-olsun, ssenarini həyata keçirməyə can atır. Gizlin deyil ki, bu qarşıdurmanın başlıca məqsədi mövcud hakimiyyəti devirmək və Gürcüstanda qərbyönlü, Qərbdən idarə olunan, bir növ ələbaxan bir iqtidar komandası formalaşdırmaqdır. Qərbin qan qoxulu bu planları gürcü xalqı tərəfindən qəti şəkildə rədd edilir. Çünki xalq oktyabrın 26-da parlament seçkilərində öz seçimini edib, sözünü deyib. Onun Qərbin fitnəkar planlarına, ssenarilərinə ehtiyacı yoxdur. Gürcü xalqı seçdiyi hakimiyyəti ilə dinclik və əmin-amanlıq şəraitində yaşamaq istəyir. Qərb isə buna imkan vermir, müxtəlif yollar və vasitələrlə xalqın haqq işinə mane olmağa, əngəl yaratmağa çalışır.

Qərbin Gürcüstanda həyata keçirmək istədiyi ssenari dünyaya çoxdan məlumdur. Yaxşı xatırlayırıq ki, 2004-cü il postsovet məkanında, o cümlədən Ukraynada və Gürcüstanda həyata keçirilmiş rəngli inqilablar, habelə 2014-cü ildə Ukraynada baş vermis "inqilab" xalqlara xaosdan, müharibələrdən, dəhşətli dağıntılardan, ölümdən, aclıqdan başqa heç nə vermədi. Yalnız öz maraqlarını güdən Qərb illər sonra yenidən Gürcüstanda "rəngli inqilab" etmək istəyir. Bu "rəngli inqilab"lardan isə müharibə və qan qoxusu gəlir.

Özünü demokratiyanın carçısı kimi qələmə verməyə çalışan Qərb mediası və siyasi dairələr isə ənənələrinə sadiq qalaraq yenə də həqiqətdən uzaq olan informasiyalar yayır, sərsəm bəyanatlar verir, Gürcüstanın inqilabın astanasında olduğu fikirlərini qabardırlar. Gürcüstandakı sabitliyi pozmaq, xaos yaratmaq üçün son zamanlar ABŞ və Avropa İttifaqı (Aİ) davamlı olaraq müxtəlif yollar və vasitələrlə Gürcüstana təzyiqlər göstərirlər. Bu təzyiqlərin nəticəsi olaraq illərdən bəri ölkəyə edilən yardımlar dayandırılıb. Bununla da kifayətlənməyən Qərb bütün giriş qapılarını Gürcüstanın hakimiyyət nümayəndələrinin üzünə bağlayıb.

→ 4




# Andjey Dudanın Ermənistana səfəri məqsədli olub

## Qərbin Ermənistanı yenidən revanşizmə hazırlamaq cəhdləri boş xəyallardan başqa bir şey deyil

Polşa Prezidenti Andjey Dudanın Ermənistana səfəri məqsədli olub. Çünki Paşinyan Azərbaycanla sərhədlərin delimitasiyasından danışarkən delimitasiya olunmuş ərazilərdən Avropa İttifaqının "müşahidə missiyası"nı çıxaracağını demişdi. Bu açıqlamadan dərhal sonra Duda Ermənistana səfərə gəlib və Avropa İttifaqının keçmiş hərbçilərdən təşkil olunmuş qrupunun tərkibində Azərbaycanla sərhəddə dayanaraq binokolla pozalar verib. Sonra da Polşa müşahidəçilərini artıracağı ilə bağlı fikirlər səsləndirib.

Bütün bunlar Avropa İttifaqının regionumuza sülhün gəlməsinə mane olmağa çalışmasının ifadəsidir. Çünki gündəlikdə dekabr ayından başlayaraq danışıqların bərpası haqqında fikirlər var idi. Amma Dudanın səfərindən sonra Ermənistanın şərti sərhədimizə qoşun hissələrini yığdığını, səngərlər qazdığını müşahidə edirik. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan Azərbaycanla yenidən müharibəyə hazırlaşır. Bu, ilk növbədə Qərbin istəyidir. Çünki Qərb Rusiyanın qonşuluğunda ikinci bir müharibə ocağını yaratmaqla diqqəti bu istiqamətə yönəltmək istəyir. Məhz ona görə də Fransa artilleriya qurğularını, Yunanıstan "S-300" radar kompleksini, Hindistan raket komplekslərini Ermənistana tədarük edib. Qərbdən dəstək alan Ermənistan da həvəslənib və müharibəyə hazırlaşmaq üçün cəsarətlənib.

Paşinyan üçün bu arada hərbi əməliyyatlara başlaması və hər hansı kiçik də olsa bir uğur qazanması lazımdır. Çünki Ermənistan ictimaiyyəti arasında Paşinyanın nüfuzu kifayət qədər aşağı düşmüşdür. 2026-cı ildə keçiriləcək seçkilərdə hakimiyyəti yenidən əlində saxlamaq üçün Paşinyana kiçik də olsa bir uğur lazımdır. Ona görə də vəziyyəti gərginləşdirmək üçün çalışır. Digər bir məsələ Qərb və Ermənistan Azərbaycanla danışıqlarda hər hansı bir üstünlüyə nail olmaq üçün kiçik də olsa bir qələbə qazanmağa çalışırlar. Yəni hesab edirlər ki, ordusuna gətirdiyi Hindistan raketləri və Qərb hərbi texnikaları, Fransanın keçdiyi hərbi təlimlər onlara Azərbaycan üzərində üstünlük qazandırmağa imkan verəcəkdir. Amma çox yanılırlar.

→ 4

# Ermənistanın yeni avantürası ona çox ağır başa gələcək

Azərbaycanın sülh təşəbbüsləri Ermənistan tərəfinin tam əks fəaliyyətləri ilə müşahidə olunur. Fransanın Ermənistanla hərbi əməkdaşlığı isə bölgədə gərginliyin artmasına hesablanıb.

Bu ölkənin müharibə hazırlıqlarını təsdiqləyən digər faktlar da mövcuddur. Öncə Fransa, ardınca Hindistan Ermənistana silah verməyə başladı. "Avropa Sülh Fondu" adı ilə Ermənistana 10 milyon avro vəsait ayrıldı. Araşdırmalar nəticəsində bəlli oldu ki, adı "sülh fondu" olan təşkilatın Ermənistana ayırdığı 10 milyon avro ölkənin silahlı birləşmələrinin maddi-texniki bazasının gücləndirilməsi üçündür.

Digər tərəfdən isə tərəflər arasında sülh müqaviləsinin imzalanması üçün vasitəçilik etmək istəyən ABŞ-nin də Ermənistana hərbi yardımlar etdiyi dəqiqləşdi. Belə ki, faktlar əsasında bəlli oldu ki, rəsmi Vaşinqton yuxarıda sadalanan faktlardan əlavə Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən minihücum pilotsuz təyyarələri, kiçikölçülü minalar və digər döyüş sursatlarını da Hayastana hədiyyə edib.

Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnikanın təhvil verilməsi faktları təsdiqləndi. Əvvəlcə ABŞ tərəfi yayılan məlumatı təkzib etsə də, "Caliber.az" saytının yaydığı videogörüntülər faktı bir daha təsdiqlədi. Belə ki, "Flightradar" qlobal uçuş izləmə xidməti vasitəsilə əldə edilən görüntülərdə aydın şəkildə müşahidə edilir ki, 2-3 avqustda ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə qalxır. ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilir. Daha sonra da ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli miqdarda silah-sursat daşınıb. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir.

Lakin bu da hamısı deyil. ABŞ təbii olaraq bu missiyanı erməni hərbçilərinə həvalə etməyib, bu cihazları idarə edəcək 30-50 nəfər mütəxəssisi də çatdırıb.

→ 4

# 2003-2023-cü illərdə ölkə üzrə 3,3 milyondan çox iş yeri açılıb

## Qarabağa və Şərqi Zəngəzura köçən iqtisadi fəal əhalinin 80 faizi işlə təmin edilib

Aparılan sosial siyasətdə sağlam və əmək qabiliyyətli vətəndaşların məşğulluğunun təmin edilməsi həmişə prioritet kimi müəyyən olunur. Bu da təsadüfi deyil. Çünki yeni iş yerlərinin açılması həm əmək qabiliyyətli əhalinin öz sosial problemlərini həll etməsi, həm də ölkənin iqtisadi göstəricilərinin artması deməkdir.

Dövlət Statistika Komitəsindən (DSK) verilən məlumata görə, cari il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 308,1 min nəfər olmuşdur. Onlardan 5 milyon 25,3 min nəfəri məşğul əhalidir. Cari il noyabrın 1-i vəziyyətinə görə, Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı isə 214,7 min nəfər olmuşdur. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 406,1 manat təşkil etmişdir.

Cari ilin 9 ayında ölkə üzrə 69,6 min yeni iş yeri açılmışdır. Həmin açılmış iş yerlərinin 11,9 faizi yeni yaradılmış, 87,1 faizi mövcud, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılmışdır.

→ 5



# Heydər Əliyev Fondu ilə Səudiyyə Ərəbistanı arasında layihələr müzakirə olunub






**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ər-Riyadda Səudiyyə Ərəbistanının Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin rəhbəri Abdullah Ər-Rabiə ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Kral Salman Mərkəzi ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın inkişafı, eləcə də gələcək birgə layihələr istiqamətində müzakirələr aparılıb.

Abdullah Ər-Rabiə, eyni zamanda İki Müqəddəs Ocağın Xadimi Kral Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanının vəliəhdi, Nazirlər Şurasının sədri şahzadə Məhəmməd bin Salman Al Səudun salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib.

# Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılmasının birilliyi qeyd edilib

**Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılmasının birilliyi münasibətilə İncəsənət fakültəsi tərəfindən konsert və sərgi təşkil edilib. Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Xankəndi və Şuşa şəhər ictimaiyyətinin rəsmiləri, Qarabağ Universitetinin müəllim və tələbələri iştirak ediblər.**




AZƏRTAC xəbər verir ki, tədbir İncəsənət fakültəsinin xorunun ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov ali təhsil ocağının birillik fəaliyyətinə dair xüsusi məqamları qeyd edib. Rektor bu müddət ərzində əldə edilən nailiyyətlərdən danışaraq, Qarabağ Universitetinin yalnız regionda deyil, ümumilikdə, ölkənin təhsil sistemində önəmli rol oynadığını bildirib. O, universitetin yaradılmasının Qarabağ bölgəsinin sosial-iqtisadi, xüsusən də təhsil və mədəniyyət sahəsinin inkişafına mühüm töhfələr verəcəyini vurğulayıb.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında Qarabağ Universitetinin qısa müddətdə böyük inkişaf yolu keçdiyini və universitetin təhsil, elm və innovasiya sahələrindəki fəaliyyətinin ölkə üçün əhəmiyyətli olduğunu bildirib. Nazir qeyd edib ki, universitetin tədris prosesi beynəlxalq səviyyədə tanınan standartlara uyğun təşkil edilir, həmçinin tələbələrə müasir və keyfiyyətli təhsil imkanları təqdim olunur. E.Əmrullayev Qarabağ Universitetinin fəaliyyətinin regionda təhsil və elm sahəsindəki islahatların bir hissəsi olduğunu diqqətə çatdırıb. Konsertdə "Cadenza" orkestrinin, İncəsənət fakültəsində müəllim kimi fəaliyyət göstərən tanınmış incəsənət xadimlərinin və tələbələrin ifasında milli mahnılarımız və görkəmli bəstəkarların əsərləri səsləndirilib.

Sonra İncəsənət fakültəsinin sərgi zalında dekorativ-tətbiqi sənət və dizayn ixtisaslarının müəllimlərinin əsərləri nümayiş etdirilib.

Qeyd edək ki, Qarabağ Universiteti Prezident İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli sərəncamı ilə yaradılıb.

# Forumda Azərbaycanın beynəlxalq və regional məsələlərin həllində səyləri barədə məlumat verilib



**Mərakeşin Tancə şəhərində keçirilən beynəlxalq "MEDays" forumu başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev tədbir çərçivəsində keçirilən "Böhran dövründə qlobal idarəetmə: çoxqütblü dünya üçün çoxtərəfliliyin yenidən qurulması" mövzusunda panel iclasında iştirak edib.

Nazir müavini çıxışında ölkəmizin BMT Təhlükəsizlik Şurasındakı qeyri-daimi üzvlüyü zamanı fəaliyyətindən, regional və beynəlxalq müstəvidə dövlətlər arasında sülhün və əməkdaşlığın təmin edilməsi, möhkəmlənməsi sahəsində səylərindən danışıb.

F.Rzayev qeyd edib ki, Azərbaycan dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına 4 il sədrlik edib, bu dövr ərzində Hərəkatın beynəlxalq müstəvidə fəal təşkilata çevrilməsinə töhfə verib.

Nazir müavini çıxışında həmçinin Bakıda keçirilmiş COP29 konfransının nəticələrinin, onun iqlim böhranının həllinə verə biləcəyi töhfələrin, iqlim maliyyələşməsi üzrə əldə edilmiş razılaşmanın əhəmiyyətinə diqqət çəkib. Qeyd edilib ki, razılaşmaya əsasən, 2035-ci ilə qədər iqlim məsələlərinə hər il 300 milyard dollar ayrılacaq. Bu məbləğ gələcəkdə qlobal istiləşmə probleminin həllinə və iqlim dəyişikliklərindən əziyyət çəkən inkişaf etməkdə olan ölkələrə yönəldiləcək.

Panel iclasında Mərakeş Kralı VI Məhəmmədin mühüm işlər üzrə səfiri xanım Asiya Bensaleh əl-Ələvi, Belçika Krallığının sabiq Baş naziri İv Löterm, Finlandiyanın sabiq Baş naziri Mari Kiviniem, Rumıniyanın sabiq Baş naziri Datsian Çioloş Çexiyanın sabiq xarici işlər naziri Tomas Petriçek də çıxış ediblər.

Qeyd edək ki, Mərakeş Kralının himayəsi ilə keçirilmiş forumda dünyanın 100-dən çox ölkəsindən 6 mindən çox nümayəndə iştirak edib. Tədbir çərçivəsində panel iclaslarında 250-dən çox yüksəksəviyyəli qonaq çıxış edib. Çıxışçılar arasında dövlət və hökumət başçıları, görkəmli siyasi xadimlər, Nobel mükafatçıları da var.

# Budapeştdə TDT Ağsaqqallar Şurasının 16-cı iclası

**Macarıstan paytaxtında Türk Dövlətləri Təşkilatı (TDT) Ağsaqqallar Şurasının 16-cı iclası keçirilib. AZƏRTAC təşkilatın mətbuat üçün açıqlamasına istinadla xəbər verir ki, TDT-yə üzv ölkələrin nümayəndələri, o cümlədən Azərbaycanın TDT Ağsaqqallar Şurasında nümayəndəsi Həsən Həsənov iclasda iştirak ediblər.**



İclasda türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi, həmrəyliyin gücləndirilməsi məsələləri müzakirə olunub. Çıxış edən nümayəndələr - Həsən Həsənov (Azərbaycan), Binəli Yıldırım (Türkiyə), Qurbanqulu Berdiməhəmmədov (Türkmənistan) və digər şura üzvləri son illər bu istiqamətdə atılan addımları yüksək qiymətləndiriblər.

İclasda 2024-cü ildə Aşqabadda keçirilən 15-ci iclasın qərarlarının yerinə yetirilməsi, türk dövlətlərinin əməkdaşlığının perspektivləri ətrafında da fikir mübadiləsi aparılıb. Eyni zamanda iştirakçılar tədbirin yüksək səviyyədə təşkilinə görə TDT-də müşahidəçi statusunda iştirak edən Macarıstana təşəkkür ediblər.

# Naxçıvanda "Dövlət-din münasibətləri: geosiyasi reallıqlar və qlobal çağırışlar kontekstində" mövzusunda konfrans keçirilib





**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə noyabrın 30-da Naxçıvan şəhərində "Dövlət-din münasibətləri: geosiyasi reallıqlar və qlobal çağırışlar kontekstində" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, abidənin önünə əklil və gül dəstəsi qoyaraq Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və "Global Media Group"un birgə ərsəyə gətirdiyi "Həmişə bizimləsiniz" filmi nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransı açaraq, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə dini-mənəvi dəyərlərimizin yaşadılması sahəsində həyata keçirilmiş genişmiqyaslı tədbirlərin əhəmiyyətindən danışıb. Heydər Əliyevin böyük səyləri nəticəsində ölkəmizdə vicdan və etiqad azadlığının, dini təhlükəsizliyin təmin edildiyini, sağlam dini ideologiyanın formalaşdığını vurğulayıb. Bildirib ki, bu gün Ümummilli Liderin tövsiyələri əsas götürülərək, Azərbaycanda dövlət-din münasibətləri unikal tarixi-mədəni şəraitə, dini sahənin özünəməxsus xüsusiyyətlərinə, demokratik prinsiplərə əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini dəyərlərin, tolerantlığın və multikultural ənənələrin tənzimlənməsi istiqamətində sistemli iş aparılır. Artıq Azərbaycan dünyaya dövlət-din modelini təqdim edir, ölkəmizdəki dini dözümlülük və tolerantlıq nümunə kimi qəbul olunur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva təkcə ölkəmizdə deyil, ümumilikdə, ümumdünya bəşəri irsinin mühafizəsi çərçivəsində sistemli iş aparır, dini dəyərlərə həssas münasibət göstərir, cəmiyyətdə dini həmrəyliyin yaradılmasına, qlobal səviyyədə dinlərarası dialoqun təşviq edilməsi işinə töhfə verir. F.Nəcəfli, eyni zamanda Naxçıvanda Prezidentin dövlət-din münasibətlərinin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası barədə danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında Azərbaycanın ötən müddətdə qazandığı nailiyyətləri qeyd edərək, ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyev tərəfindən qədim Naxçıvanda başlanan yolun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Qeyd edib ki, qələbələrimizə təminat yaradan ən böyük amillərdən biri milli birliyimizdir. Respublikamızda dövlət-din münasibətlərinin mükəmməl modellərindən birinin yaranmasında cəmiyyətimizdəki dinlərarası harmoniya, birgəyaşayış mühiti mühüm rol oynayıb.

Ramin Məmmədov Azərbaycanın dövlət-din münasibətləri sisteminin bir neçə vacib sütuna əsaslandığını deyib. Modern dünyəvi dövlətin, ənənələrə sadiqliyin və gələcəyə dair aydın, konkret baxışların mövcudluğunun əhəmiyyətinə toxunub. Vurğulayıb ki, dövlət hər bir xalqın malik olduğu milli-mənəvi dəyərlər sistemini müdafiə mexanizmlərini yaradır və din bu sistemin bir hissəsidir. Xalqımızın təfəkküründə, tarixi yaddaşında başqalarına dözümsüzlük kimi bir anlayış yoxdur. Etnik və dini müxtəliflik ayırıcı xətt deyil, birləşdirici, qarşılıqlı dialoqu təşviq edən amildir. Güclü dövlət həm də belə ehtimalları vaxtında aşkara çıxarmaq, proqnozlaşdırmaq, zəruri tədbirlər görmək üçün vacibdir. Tədbirin aktual mövzuya həsr olunduğunu deyən komitə sədri söyləyib ki, xüsusilə indiki geosiyasi reallıqlar qarşıda duran vəzifələri daha dərindən təhlil etməyə sövq edir. Azərbaycanın son illərdə əldə etdiyi tarixi qələbələr bir çox siyasi dairəni narahat edir. Konfransın əsas missiyası da tarixi nailiyyətimiz olan dövlət-din münasibətləri modelini qorumağa və daha da möhkəmləndirməyə imkan verən ideya və təkliflərin öyrənilməsindən ibarətdir.

Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa muxtar respublikanın strateji cəhətdən mövqeyindən danışıb. Azərbaycanın dövlət-din münasibətlərinin özünəməxsus quruluşa malik olduğunu bildirən F.Mustafa Azərbaycan vətəndaşlarının vicdan azadlığı hüququnun ölkə qanunvericiliyində öz əksini tapdığını deyib. Dövlətin dinə qayğısından bəhs edən deputat azad olunmuş ərazilərdə dini abidələrin abadlaşdırılması prosesini qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Bəxtiyar Nəcəfov dövlət başçısı İlham Əliyevin müdrik siyasəti nəticəsində milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafı istiqamətində görülmüş işlərdən danışıb. Respublikanın müxtəlif regionlarında inşa və təmir-bərpa edilən məscid-ziyarətgah kompleksləri, kilsələr və sinaqoqların söylədiklərinə əyani sübut olduğunu diqqətə çatdıran B.Nəcəfov Prezidentin işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərini daim diqqətdə saxladığını, hər səfərində milli-mənəvi irsimiz olan abidələrin bərpası və təmiri ilə yaxından maraqlandığını vurğulayıb.

Konfrans işini "Dövlət-din münasibətləri: ideoloji təhlükəsizlik müstəvisində" və "Milli-mənəvi dəyərlərə qayıdış: ənənə və müasirlik" mövzusunda panellərlə davam etdirib.

# *TDT:* Türkdilli ölkələr arasında sadələşdirilmiş gömrük dəhlizi türk dünyasında ticarəti asanlaşdırmağı hədəfləyir

**Türk Dövlətləri Təşkilatı (TDT) türkdilli ölkələr arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması ilə bağlı sazişin qüvvəyə minməsi ilə bağlı açıqlama yayıb.**



AZƏRTAC xəbər verir ki, "Daha güclü ticarət əməkdaşlığı və nəqliyyat əlaqəsi üçün irəliləyiş addımı" başlığı ilə yayımlanan açıqlamada deyilir: "Türk Dövlətləri Təşkilatının (TDT) 2022-ci il noyabrın 11-də Səmərqənddə keçirilən Zirvə görüşü zamanı imzalanan "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" sazişin 2024-cü il noyabrın 29-da qüvvəyə mindiyini elan etməkdən məmnuniyyət hissi keçiririk".

Mətndə bu təşəbbüsün gömrük prosedurlarını asanlaşdırmaq, rəqəmsal məlumat mübadiləsini inkişaf etdirmək və tranzit müddətlərini qısaltmaqla, türk dünyası arasında ticarəti asanlaşdırmağı hədəflədiyi vurğulanıb.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əlaqələr daha da möhkəmlənir

**Milli Məclis "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin qısamüddətli vizadan qarşılıqlı azad edilməsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə qanun layihəsini səs çoxluğu ilə təsdiq edib. Bununla bağlı "Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, siyasi elmlər doktoru Rizvan Nəbiyevin sözlərinə görə, Azərbaycanla Səudiyyə Ərəbistanı hökuməti arasında imzalanan Anlaşma Memorandumu Azərbaycanın viza məsələləri sahəsində şəffaflıq siyasətini, eləcə də, beynəlxalq birliyin üzvü olan dost dövlətlərlə münasibətlərin inkişafına verdiyi dəyəri göstərir.**



Rizvan Nəbiyev qeyd edib ki, dost və qardaş Səudiyyə Ərəbistanı ilə münasibətlərin əsaslarının formalaşdırılmasına Ümummilli Lider Heydər Əliyevin 30 il əvvəl, 1994-cü ildə bu ölkəyə etdiyi rəsmi səfər böyük töhfə vermişdir. Ümummilli Liderin İki Müqəddəs Ocağın Xadimi, mərhum Kral Fəhd bin Əbdüləziz Al Səudla əldə etdiyi razılaşmalarla və iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın ümumi istiqamətlərinə dair imzalanan hökumətlərarası baş sazişlə münasibətlərin möhkəm təməli qoyuldu. Məhz bu fundament üzərində qurulan və son 30 il ərzində iki dövlət arasında inkişaf edən əlaqələr Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən "strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş" münasibətlər kimi dəyərləndirilir. Bu strateji tərəfdaşlığın ikitərəfli yazılı sənəddə də hüquqi baxımdan təsbit olunması aktual və zərurə məsələ kimi diplomatiyamızın qarşısında durur.

Deputat bildirib ki, bu qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin ən bariz göstəricilərindən biri Səudiyyə hökumətinin torpaqlarımızın beynəlxalq hüquqa zidd işğalına uzun illər qlobal diplomatik müstəvidə göstərdiyi dəstək mövqeyi olmuşdur: "Bir faktı vurğulamaq istərdim ki, Azərbaycan Respublikası 2023-cü ilin sentyabrında suverenliyini tam bərpa edənədək Səudiyyə Ərəbistanı Ermənistanla diplomatik münasibətlər qurmamışdır. Bu illər ərzində həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə, o cümlədən BMT və onun ixtisaslaşmış qurumları, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda göstərilən qarşılıqlı dəstək yüksək qiymətləndirilməlidir".

Rizvan Nəbiyevin sözlərinə görə, əlaqələrimizin müsbət dinamika ilə inkişafı və ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Son 2-3 il ərzində iki ölkə arasında müşahidə olunan qarşılıqlı səfərlər dinamikası buna əyani sübutdur. 2022-2023-cü illər ərzində Səudiyyə Ərəbistanı və Azərbaycan arasında müxtəlif səviyyələrdə qarşılıqlı olaraq 16 səfər həyata keçirillmişdir".

Ölkələrimiz arasında əməkdaşlığın inkişafında parlamentlərarası əlaqələr də vacib yer tutur. Milli Məclis Sədrinin ötən illər ölkəmizdə səfərdə olan çoxsaylı səudiyyəli nümayəndə heyətlərinin rəhbərləri ilə Milli Məclisdəki görüşləri buna misaldır.

Postmünaqişə dövründə də Səudiyyə Ərəbistanının dost münasibətini faktlarla izah etmək olar. Bu barədə danışan Rizvan Nəbiyev deyib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minatəmizləmə fəaliyyəti üçün ayrılan 3 milyon ABŞ dolları məbləğində dəstək minnətdarlıqla qeyd edilməlidir: "Bu, digər dövlətlər üçün bir nümunədir. 30 illik işğalın nəticəsi olaraq bu gün də Azərbaycan ərazilərinin 12 faizi mina və partlamamış hərbi sursatlarla çirklənmiş olaraq qalmaqdadır. Səudiyyə Ərəbistanı investisiya naziri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edən ilk əcnəbi hökumət üzvlərindən olub. Səudiyyəli nazir energetika, xüsusilə "yaşıl energetika", kənd təsərrüfatı, eko-turizm kimi sahələrə sərmayə yatırmaqda maraqlı olduqlarını qeyd edib. İqtisadi əməkdaşlıq potensialı böyükdür, layihələr üçün geniş imkanlar var. İki ölkə arasında iqtisadi əməkdaşlıq komissiyaları bu istiqamətdə fəaliyyətlərini uğurla davam etdirirlər".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Azərbaycan-Rumıniya strateji tərəfdaşlığı sülhə və tərəqqiyə xidmət edir

**Azərbaycanın Avropa siyasətində özünəməxsus yeri və rolu olan mühüm ölkə qardaş Rumıniyadır. Hər iki xalqı yüksək insani keyfiyyətlər, humanizm prinsiplərinə hörmət, demokratiya və azadlıq ideallarına sadiqlik, dönmədən dinc əməkdaşlığa can atmaq səyləri birləşdirir. Təsadüfi deyil ki, iki xalq arasında əlaqələr Orta əsrlərə gedib çıxır. Sovet hakimiyyəti çərçivəsində Azərbaycan-Rumıniya əlaqələri inkişaf etmişdir. O zaman bu əlaqələr yalnız iqtisadi-ticarət və mədəni sahələri əhatə edirdi.**



İndi isə Şərqi Avropanın və Cənubi Qafqazın aparıcı dövlətləri olan Rumıniya və Azərbaycan arasında həyatın elə bir sahəsi yoxdur ki, orada əlaqələr mövcud olmasın. Hər iki ölkənin ərazisində zəngin mineral ehtiyatların, yeraltı və yerüstü sərvətlərin bolluğu, logistika imkanlarının böyük olması quru və su yolu ilə tranzit yük daşımalarını zəruri edir.

Qoca qitədə azadlıqsevərliyi ilə seçilən Rumıniya çətin sınaqlara sinə gərərək özünün dövlət müstəqilliyinə qovuşmuşdur. Sovetlər birliyinin süqutundan sonra dünyanın inkişaf etmiş ölkələrinin yenicə müstəqillik qazanmış Cənubi Qafqaz respublikalarına, xüsusilə də Azərbaycana marağı artmışdı. Bunu həm bu regionun geostrateji mövqeyi, logistika imkanları, karbohidrogen ehtiyatları və "yaşıl enerji" imkanları ilə zəngin olması, həm də yenicə yaranmış on milyondan çox müştərisi olan yeni bazarı da zəruri edirdi.

Rumıniyaya maraq ona görə güclü olub ki, bu diyarda bol günəş, təmiz dəniz, gözəl dağlar mövcuddur. Ən diqqətəlayiq yerlər arasında yaxşı qorunan Orta əsr qalaları və milli parklar turistlər tərəfindən yüksək qiymətləndirilir.

Hazırda 23 milyonluq əhaliyə malik olan Rumıniya son illər Avropanın ən mühüm bazarlarından birinə çevrilmişdir. Ölkənin əsas ticarət tərəfdaşları İtaliya, Almaniya, Macarıstan, Fransa və Türkiyədir. Son 10 il ərzində ümumi daxili məhsulun miqdarını 2,5 dəfə artıran Rumıniya Avropanın 12-ci iqtisadi gücünə çevrilmişdir. Keçən il bu ölkənin beynəlxalq valyuta ehtiyatları 69 milyard dollardan çox olmuşdur.

Təbii coğrafi mövqeyi, təbii ehtiyatları, yüksəkixtisaslı işçi qüvvəsinə malik olması Rumıniyanın önəmini artırır. Son illər ərzində sürətli iqtisadi artım dövrünü yaşayan bu ölkənin iqtisadiyyatında xidmət sahələri davamlı inkişaf edir. Bundan əlavə, Rumıniya maşın və elektrik enerjisi istehsalçısı və onların xalis ixracatçısıdır. Bu ölkə mərkəzləşdirilmiş iqtisadi planlaşdırma və dövlət tənzimlənməsi ilə birlikdə bir çox özəl sahəni də özündə birləşdirən qarışıq iqtisadiyyata malikdir.

Rumıniyanın 10 ən böyük ixracatı elektrik avadanlıqları, nəqliyyat vasitələri, kompüterlər daxil olmaqla maşınlar, mineral yanacaq, taxıl, dəmir və polad, rezin və rezin məhsullarıdır. Rumıniya yüksəkgəlirli iqtisadiyyata malik inkişaf etməkdə olan, beynəlxalq münasibətlər sistemində orta güc kimi tanınan ölkədir. Təsadüfi deyil ki, ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biri və Avropa İttifaqına üzv dövlətlər arasında birincisi məhz Rumıniya olmuşdur. İki ölkə arasında diplomatik əlaqələrin əsası 1992-ci il iyunun 19-da qoyulub.

Bünövrəsi və strategiyası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və möhkəm özüllər üzərində qurulan Azərbaycan-Rumıniya münasibətləri Prezident İlham Əliyevin hakimiyyəti illərində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. 2003-cü il dekabrın 5-də Azərbaycan ilə Rumıniya arasında tərəfdaşlıq haqqında bəyannamə imzalanmışdır. Bunun ardınca 2009-cu ildə imzalanmış Strateji tərəfdaşlığa dair Birgə Bəyannamə və 2011-ci ildə imzalanmış Strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planı qarşılıqlı münasibətləri keyfiyyətcə yeni səviyyəyə yüksəltmişdi.

Siyasi münasibətlərin yüksək səviyyədə inkişafı digər sahələrdə əlaqələrin güclənməsinə böyük təsir göstərdi. Dövlət və hökumət başçıları səviyyəsində müntəzəm görüşlərin keçirilməsi tərəfdaşlıq münasibətlərinə ciddi təkan verdi. 2022-ci il dekabrın 17-də Prezident İlham Əliyevin Buxarestə səfəri çərçivəsində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair imzalanmış saziş əməkdaşlığın çoxtərəfli əsasda inkişafı üçün mühüm zəmin yaratdı. Bu cəhətdən Azərbaycan-Rumıniya əməkdaşlığı Şərq-Qərb münasibətlərində mühüm bir körpü rolunu oynayır.

Ümumilikdə keçən müddət ərzində iki ölkə arasında həyatın müxtəlif sahələrinə dair 61 əməkdaşlıq sənədi imzalanmışdır ki, bunlar da qarşılıqlı münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi əməkdaşlığın şaxələndirilməsi üçün gözəl imkanlar açmışdır.

Son illər ərzində iki ölkənin parlamentləri arasında işgüzar əlaqələrin inkişafı səmərəli və məhsuldar olmuşdur. Bu sahədə parlament sədrlərinin görüşləri və aparılan müzakirələr, dostluq qruplarının səmərəli fəaliyyəti mühüm rol oynamışdır. Milli Məclisin Sədri Sahibə Qafarovanın Rumıniyaya rəsmi səfəri çərçivəsində 2023-cü il oktyabrın 10-da bu ölkənin Parlamentinin Deputatlar Palatasının Sədri Alfred-Robert Simonis ilə görüşüb müzakirələr aparması əhəmiyyətli bir hadisə oldu.

Bu ilin aprelində Bakıda Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə müştərək komissiyanın 8-ci iclasının keçirilməsi ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə ciddi təsir göstərdi. Ayrı-ayrı hökumət üzvlərinin qarşılıqlı görüşləri də əməkdaşlığın əlavə potensial imkanlarının üzə çıxarılmasında əhəmiyyətli rol oynadı.

İqtisadi əməkdaşlıq Rumıniya və Azərbaycan arasındakı ən uğurlu sahələrdən biridir. Xüsusilə son illər ərzində qarşılıqlı faydalı xarakter daşıyan ticarət əlaqələri müsbət məcrada yüksələn xətlə inkişaf edir. Əgər 2023-cü ildə Azərbaycanın dost Rumıniya ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon dollar olmuşdursa, 2024-cü ildə bu göstərici artıq 700 milyon dollar təşkil etmişdir. Ticarət dövriyyəsinin böyük hissəsini Azərbaycanın Rumıniyaya ixrac etdiyi məhsullar təşkil edir. Son illər Azərbaycanın bu qardaş ölkəyə ixracatı arasında qeyri-neft sektoruna məxsus məhsulların həcmi də durmadan artır.

Qarşılıqlı investisiya qoyuluşları sahəsində əlaqələr də gündən-günə inkişaf etməkdədir. İndiyədək Rumıniya Azərbaycan iqtisadiyyatına 30 milyon dollar, Azərbaycan isə bu qardaş ölkənin müxtəlif infrastruktur sahələrinə 90 milyon dollar məbləğində investisiya yatırmışdır. Nəticədə müasir iqtisadiyyatın yeni sahələrinin inkişafı üçün geniş imkanlar, yeni iş yerləri yaradılmış, istehsalın səmərəsi artmış, müxtəlif infrastruktur sahələri inkişaf tapmışdır.

Hazırda Azərbaycan və Rumıniya enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı, səhiyyə və mədəniyyət sahələrində uğurla əməkdaşlıq edirlər. Rumıniyanın Cənubi Qafqaz regionunda mühüm enerji müttəfiqi təbii ki, Azərbaycandır. Bu cəhətdən Rumıniya ilə Azərbaycan arasında enerji sahəsində həyata keçirilən birgə layihələr Avropanın enerji təhlükəsizliyinə töhfə verir. SOCAR və "Romqaz" arasında imzalanmış müqaviləyə əsasən, 2023-cü il yanvarın 1-dən Azərbaycan qazı Rumıniya bazarına çatdırılır. SOCAR-ın bu ölkədə 700-dən çox işçinin çalışdığı 70-dən artıq yanacaqdoldurma məntəqəsi və bir neçə yanacaq deposu fəaliyyət göstərir.

Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında təbii qaz üzrə strateji Tərəfdaşlıq Memorandumunun imzalanması da əməkdaşlığa müsbət təsir göstərdi. Rumıniya tərəfi özünün nəqliyyat-logistika imkanları ilə bu sahədə mühüm rol oynayır. Təsadüfi deyil ki, 2024-cü il aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin önəmini vurğuladı.

İki ölkə arasında üstün əməkdaşlıq sahələrindən biri nəqliyyat sektorudur. Bu sahənin inkişafı üçün hər iki ölkənin geniş və müasir logistika imkanları var. Beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsində bu imkanlar böyük rol oynayır. Bakı beynəlxalq dəniz ticarət limanı ilə Konstansa limanı arasında faydalı və səmərəli əməkdaşlıq getdikcə genişlənir.

Digər sahələrdə olduğu kimi, mədəni sahədə də əməkdaşlıq genişlənir. Hər iki ölkənin paytaxtında davamlı olaraq mədəniyyət günlərinin keçirilməsi, müxtəlif yönümlü sərgilərin təşkili, mədəniyyət və incəsənət xadimlərinin yubileylərinin qeyd olunması, elm və təhsil ocaqları arasında əlaqələr müntəzəm xarakter almışdır. Keçən il yanvarın 16-da Binəqədi rayonunda dahi rumın bəstəkarı, skripkaçı, dirijor və mahir musiqiçi Corce Eneskunun adını daşıyan parkda Rumıniyanın Milli Mədəniyyət Gününə həsr olunmuş tədbirin keçirilməsi şəhər sakinlərinin böyük marağına səbəb olmuşdu. Həmçinin Azərbaycanda Rumıniya Mədəniyyəti Gününün keçirilməsi iki dövlət arasında humanitar əlaqələrin inkişafı üçün böyük əhəmiyyətə malikdir.

Müxtəlif elm sahələrini əhatə edən simpoziumların, konfransların təşkili də müsbət haldır. Bu ilin aprel ayında Buxarestin Parlament Sarayında keçirilən Rəqəmsal İnnovasiyalar Sammitində təşkil olunmuş "Kritik İnfrastrukturların Mühafizəsi - 2024" Beynəlxalq Konfransı uğurla başa çatmışdır.

Turizm və təhsil sahəsində əlaqələr də getdikcə yeni vüsət alır. Müəllim və tələbə mübadiləsi qarşılıqlı təhsil sahəsində əlaqələrə ciddi təsir göstərir. Bu il Azərbaycan Turizm və Menecment Universitetinin Mehmanxana və restoran biznesi kafedrasının baş müəllimi Firuzə Raşova Avropa İttifaqının "Erasmus+" proqramı çərçivəsində Rumıniyanın Aleksandru İon Kuza adına Yassı Universitetinin Coğrafiya və geologiya fakültəsinin tələbələrinə "Azərbaycanda hotel biznesi" fənnini tədris edib. Bütün bunlar onu göstərir ki, müxtəlif sahələrdə əməkdaşlıq imkanları çoxdur və onların üzə çıxarılması, həyata keçirilməsi iki ölkə arasında münasibətləri daha dolğun və məzmunlu edir.

Qəti əminliklə vurğulamaq olar ki, Azərbaycan-Rumıniya strateji tərəfdaşlığı həm Cənubi Qafqazda, həm də Avropa məkanında enerji təhlükəsizliyi ilə yanaşı sabitliyə, sülhə və tərəqqiyə xidmət edir.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

## "Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərini müdafiə edib"

**"Beynəlxalq hüququn selektiv tətbiqi və ikili standartların geniş yayılması səbəbindən dünya düzəni təhlükə altındadır".**

AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin (BMTM) sədri Fərid Şəfiyev Mərakeşin Tanjer şəhərində keçirilən 16-cı MEDays forumunda söyləyib.

BMTM-in sədri bildirib ki, 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan ikili standartlar siyasətinin təzahürləri ilə üzləşməli olub. İşğala məruz qalan Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərini müdafiə edib.

Fərid Şəfiyev Azərbaycan xarici siyasətinin prioritetlərinə də toxunub: "1990-cı illərin əvvəllərində biz tez-tez Avroatlantik məkanına inteqrasiya barədə danışırdıq. İndi isə biz qoşulmama statusunu seçmişik. Qonşuluğumuzda baş verən bütün geosiyasi hadisələr, - 2008-ci ildə Gürcüstanda baş verənlər və Ukraynadakı müharibə, - ikili standartların əsl mənzərəsini ortaya qoydu. İkili standartlar dövlətlər arasında ayırıcı xətləri dərinləşdirir".

Beynəlxalq münasibətlərin hazırkı vəziyyətinə toxunan BMTM sədri dünyanın "Qərb və digərləri" kimi iki hissəyə bölünməsinin korrekt yanaşma olmadığını qeyd edib. Vurğulayıb ki, "soyuq müharibə" dövründən fərqli olaraq dünya indi çoxqütblüdür: "Çox sayda regional və qlobal güclər meydana çıxır. Azərbaycan həm Qoşulmama Hərəkatına sədrliyi dövründə, həm də sonra Qlobal Cənubun gündəmini diqqətdə saxlayıb. Çağırışlara həll yolu olaraq mən çoxtərəfliliyin gücləndirilməsinin və iqtisadi dekolonizasiyanın aparılmasının zəruriliyini qeyd etmək istərdim".

## Azərbaycan mediası COP29-u necə işıqlandırdı - 60 min material, 4500-dən artıq telereportaj

**Audiovizual Şura və Medianın İnkişafı Agentliyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycan mediasında və sosial mediada işıqlandırılma vəziyyəti ilə bağlı birgə məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, məlumatda qeyd edilir: "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirildiyi iki həftə ərzində informasiya agentlikləri, onlayn və çap mediası subyektləri hazırladıqları materialların böyük hissəsini COP29-a həsr edib, ayrı-ayrı günlərdə hazırlanmış xəbərlərin 60 faizini sammitlə bağlı materiallar təşkil edib. 2024-cü il noyabrın 11-dən 23-dək mediada mövzu ilə əlaqədar 60000-ə yaxın link yaradılıb, bunlardan 42000-ə yaxını azərbaycandilli, 10600-dən çoxu rusdilli, 7300-ə yaxını ingilisdilli media subyektlərində dərc edilib.

COP29-la bağlı materialların işıqlandırılması zamanı xüsusilə informasiya agentlikləri məlumat bazasını formalaşdıran əsas mənbəyə çevrilib. Agentliklərin hər biri tərəfindən tədbir pavilyonuna 10-a yaxın jurnalist və fotomüxbir cəlb edilərək çoxlu qonaqla müsahibələr təşkil olunub, yüzlərlə görüş və müzakirə haqqında informasiyalar və geniş reportajlar hazırlanıb.

Xarici mediada COP29-la bağlı informasiya manipulyasiyasına cəhdlərin olduğu nəzərə alınaraq, sammitlə bağlı yüzlərlə vacib məlumat informasiya agentlikləri tərəfindən 3 dildə təqdim edilib. Bəzi media subyektlərinin rəhbərlərinin COP29-un əhəmiyyəti barədə məqalə və açıqlamaları öz təşəbbüsləri ilə dünya mediasında işıqlandırılıb.

Qeyd edək ki, informasiya agentliklərinin və onlayn media subyektlərinin veb-saytlarında sammitlə bağlı məlumatları daha əlçatan etmək üçün COP29 bölməsi yaradılıb.

Sammitin ilk günündən etibarən media subyektlərinin sosial şəbəkə hesablarında ölkənin informasiya məkanında əsas mövzuya çevrilmiş COP29-la bağlı aktiv paylaşımlar edilib, həmin materiallar da daxil olmaqla, iki həftə ərzində sosial şəbəkələrin Azərbaycan seqmentində COP29-la bağlı paylaşımlara 10 milyondan artıq istifadəçi reaksiyası müşahidə olunub.

COP29 və onunla bağlı tədbirlər Azərbaycanın televiziya kanallarında da geniş şəkildə işıqlandırılıb. Telekanallar COP29 barədə materialların hazırlanmasını xüsusi prioritet kimi müəyyənləşdirərək tədbirin işıqlandırılmasına 60-dan çox çəkiliş qrupu ayırıb. Bəzi günlərdə, xüsusilə liderlər konfransı günlərində isə çəkiliş qruplarının sayı daha da çox olub.

Aparılmış monitorinqlərin nəticələri göstərir ki, ümumölkə televiziya kanalları 2024-cü il noyabrın 10-24-də ümumilikdə müxtəlif məzmunlu 5344 material - xüsusi reportajlar hazırlayıb, xarici nümayəndə heyətlərindən, dövlət və hökumət başçılarından müsahibələr, süjetlər, canlı bağlantılar və s. yayımlayıb. Televiziya kanalları xəbər və xüsusi reportajlarla yanaşı, COP29 tədbirinin bu və ya digər aspektlərini yerli və xarici ekspertlərin iştirakı ilə ayrı-ayrı müzakirə və təhlil proqramlarında da gündəmdə saxlayıb, geniş müzakirələr təşkil ediblər. Ümumilikdə, AzTV-də 1234, "REAL" TV-də 900, "AnewZ" TV-də 840, "ARB24" TV-də 759, "Baku" TV-də 757, CBC TV-də 429, ATV-də 326, İTV-də 321, "Xəzər" TV-də 295, "Space" TV-də 149, ARB TV-də 91 material yayımlanıb.

Ölkə kanallarında COP29 tədbirinin işıqlandırılması tamaşaçılar tərəfindən də maraqla qarşılanıb. Belə ki, televiziya auditoriyasının həcminin araşdırılması ilə məşğul olan "MARSA LTD" şirkətinin məlumatına əsasən, COP29 günlərində Azərbaycan televiziya kanallarına orta hesabla gündəlik baxış sayı 5 milyon 336 min nəfər olub. Ümumi orta baxış isə 7 milyon 888 min nəfər təşkil edib.

Beynəlxalq tədbirin yekununda verilmiş tarixi qərarların və sammitin nəticələrinin əhəmiyyətini nəzərə alaraq, ölkə mediası mövzunu COP29 bitdikdən sonra da davam etdirir".



# İlham Əliyevin qətiyyətli siyasəti nümunəyə çevrilir

## Bölgə dövlətləri Qərbin davamlı təxribatlarına qarşı mübarizədə Azərbaycan modelinə istinad edirlər

*Əvvəli 1-ci səh.*

Bu seçkidə ciddi qanun pozuntusu qeydə alınmamışdı. Beynəlxalq təşkilatlar da parlament seçkilərinin demokratik şəraitdə baş tutduğunu açıqlamışdılar. Lakin seçkilərin başa çatmasından sonra Qərbdən gələn açıqlamalar bir daha göstərdi ki, onları maraqlandıran seçkilərin demokratik keçirilməsi yox, öz planları, yəni hakimiyyətə onların diktələrini yerinə yetirəcək qüvvələrin gətirilməsidir. Son olaraq Avropa Parlamentinin seçkilərin nəticələrini tanımaması Qərbin əsl niyyətini açıb göstərdi.

Seçki avantürası baş tutmayan Qərb indi təlimatlandırdığı partiyalar və QHT-lər vasitəsilə Gürcüstanla bağlı yeni planlarını işə salıb. Ölkədə siyasi proseslərin gedişi, xüsusilə Qərbdən idarə olunan müxalifətin əsassız şəkildə seçkilərin nəticələrinin ləğv olunması və yeni seçkilərin keçirilməsinə yönəlmiş fəaliyyəti aydın göstərir ki, Qərb Gürcüstanda rəngli inqilab ssenarisi planlaşdırıb və bunu həyata keçirməyə çalışır. Bunda məqsəd mövcud hakimiyyəti devirmək və Gürcüstanda qərbmeyilli, Qərbdən idarə olunan iqtidar komandası formalaşdırmaqdır.

### Rəngli inqilablar xalqlara milli maraqların itirilməsindən və faciədən başqa heç nə gətirməyib

Gürcüstanın müxalifət partiyaları seçkilərdən dərhal sonra etiraz aksiyalarına başlasalar da, xalqdan geniş dəstək almadılar. Qərb də bunun fərqindədir. Ona görə son günlərdə vəzifəsində sayılı günləri qalan Gürcüstanın prezidenti Salome Zurabişvilini də aksiyalara cəlb etməklə nəticə əldə edəcəklərinə ümid edirlər. Lakin görünən odur ki, S.Zurabişvilinin də aksiyalarda iştirakı Qərbin məkrli planlarının reallaşmasını təmin etmir.

Ümumiyyətlə, Gürcüstandakı hadisələr göstərir ki, Qərbin indi burada həyata keçirmək istədiyi məkrli ssenari vaxtilə Ukrayna və Gürcüstanda reallaşdırılmış rəngli inqilab avantüralarının özünəməxsus formada təkrarını ehtiva edir. İllər öncə olduğu kimi, indi də Qərbin nəzarətində olan siyasi partiyaların, KİV-in, QHT-lərin, o cümlədən diplomatların Gürcüstanda sabitliyi pozmaq üçün xüsusi təlimatlandırıldıqları aydın görünür. Bu kimi planların reallaşdırılmasında USAID kimi təşkilatlar fəal iştirak edirlər. Eyni ssenarinin qarşıdan gələn dövrdə parlament seçkiləri keçiriləcək Serbiyada da təkrarlanması gözlənilir.

Qərbin bu ölkələrdə həyata keçirdiyi rəngli inqilablar isə onlara milli maraqlarının itirilməsindən və faciədən başqa heç nə gətirməyib. Məsələn, artıq yayılmış məlumatlar da təsdiq edir ki, Qərb Ukraynanın parçalanması ssenarisini gerçəkləşdirir. Neçə illərdir Ukrayna xalqına Qərb mərkəzlərinin verdiyi vədlər yerinə yetirilmir və bu ölkə sözün əsl mənasında həm iqtisadi, həm də insan resursları baxımından fəlakətli vəziyyətlə üzləşib.

Bütün bunların fonunda ortaya çıxan həqiqət odur ki, Qərb bu cür yollarla, milyonlarla insanın canı və qanı bahasına, habelə hibrid müharibələr vasitəsilə postsovet məkanında qaynar nöqtələr yaratmaq kimi iyrənc planını gerçəkləşdirməyə çalışır. Lakin indi 2000-ci illərin əvvəlləri deyil. Gürcüstan əhalisi də Qərbin və onun təəssübkeşlərinin əsl niyyətinin nədən ibarət olduğunu anlayır və buna ciddi müqavimət göstərir. Bu ölkənin vətəndaşları yaxşı anlayırlar ki, xarici təsirlərin sarsıdıcı nəticələrindən sığortalanmağın yeganə yolu regional birlikdən, xüsusilə Azərbaycanla əlaqələri daha da gücləndirməkdən keçir. Azərbaycan və gürcü xalqı bir yerdə olduqca və eyni hədəfə doğru irəlilədikcə regionu qeyri-sabitlik məkanına çevirmək cəhdləri heç bir nəticə verməyəcək.

Ermənistanda isə bu reallığı hələ də anlamırlar və ya anlamaq istəmirlər. Qeyd edək ki, Ermənistan hakimiyyəti Gürcüstanda keçirilən parlament seçkilərində müxalifətin qalib gələcəyinə, Qərbin planlarının reallaşacağına, ölkədə idarə olunan hakimiyyətin formalaşacağına ümid edirdi. Amma Qərbin Gürcüstanla bağlı ssenarilərinin pozulması Ermənistan hakimiyyətinin də arzularının üstündən xətt çəkdi. N.Paşinyan İrakli Kobaxidzeyə ünvanladığı lakonik təbrikdə də Ermənistan hakimiyyətinin ümidlərinin sarsıldığı aydın sezilirdi.

Ermənilər Qərbin Ukrayna ilə bağlı planının baş tutacağını düşünür, Ermənistan hakimiyyəti planlarını bu reallıqdan çıxış edərək qururdu. Ancaq son dövrlər Rusiya-Ukrayna cəbhəsində müşahidə olunan proseslər ermənilərin bu arzusunun da puça çıxdığını göstərir.

Bütövlükdə, Gürcüstanda baş verənlər artıq Qərbin son barıtından istifadə etməsinin ifadəsidir. Aksiyaların məzmunu, ölkə vətəndaşlarının reaksiyası göstərir ki, xalq bu siyasi avantüraya dəstək vermir. Çünki Gürcüstan xalqı bilir ki, Qərb siyasi dairələri prosesləri bu məcraya yönəltməklə ölkələrini uçuruma aparmaq istəyirlər.

Azərbaycan Respublikası Qərbin siyasi təhdid və təzyiqlərinin, qarayaxma kampaniyalarının qarşısından geri çəkilmədi. Avropa Parlamenti illər boyu ölkəmizə qarşı saysız-hesabsız qətnamələr qəbul etsə də, Azərbaycan öz müstəqil yolu ilə inamla addımladı. Enerji siyasətimizin təntənəsi, torpaqlarımızın işğaldan azad edilməsi və digər nailiyyətlərimiz bu siyasətin nəticələridir. Son olaraq COP29-un uğurla keçirilməsi Azərbaycanın müstəqil və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. Bölgə dövlətləri də Qərbin davamlı təxribatlarına qarşı mübarizədə Azərbaycan modelinə istinad edirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Andjey Dudanın Ermənistana səfəri məqsədli olub

## Qərbin Ermənistanı yenidən revanşizmə hazırlamaq cəhdləri boş xəyallardan başqa bir şey deyil



**"Polşa Prezidenti Andjey Dudanın Ermənistana səfəri məqsədli olub. Çünki Paşinyan Azərbaycanla sərhədlərin delimitasiyasından danışarkən delimitasiya olunmuş ərazilərdən Avropa İttifaqının "müşahidə missiyası"nı çıxaracağını demişdi. Bu açıqlamadan dərhal sonra Duda Ermənistana səfərə gəlib və Avropa İttifaqının keçmiş hərbçilərdən təşkil olunmuş qrupunun tərkibində Azərbaycanla sərhəddə dayanaraq binokolla pozalar verib. Sonra da Polşa müşahidəçilərini artıracağı ilə bağlı fikirlər səsləndirib".**

Bunu "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov bildirib. Onun sözlərinə görə, bütün bunlar Avropa İttifaqının regionumuza sülhün gəlməsinə mane olmağa çalışmasının ifadəsidir. Çünki gündəlikdə dekabr ayından başlayaraq danışıqların bərpası haqqında fikirlər var idi. Amma Dudanın səfərindən sonra Ermənistanın şərti sərhədimizə qoşun hissələrini yığdığını, səngərlər qazdığını müşahidə edirik. Bütün bunlar onu deməyə əsas verir ki, Ermənistan Azərbaycanla yenidən müharibəyə hazırlaşır. Bu, ilk növbədə Qərbin istəyidir. Çünki Qərb Rusiyanın qonşuluğunda ikinci bir müharibə ocağını yaratmaqla diqqəti bu istiqamətə yönəltmək istəyir. Məhz ona görə də Fransa artilleriya qurğularını, Yunanıstan "S-300" radar kompleksini, Hindistan raket komplekslərini Ermənistana tədarük edib. Qərbdən dəstək alan Ermənistan da həvəslənib və müharibəyə hazırlaşmaq üçün cəsarətlənib.

Deputat qeyd edib ki, Paşinyan üçün bu arada hərbi əməliyyatlara başlaması və hər hansı kiçik də olsa bir uğur qazanması lazımdır. Çünki Ermənistan ictimaiyyəti arasında Paşinyanın nüfuzu kifayət qədər aşağı düşmüşdür. 2026-cı ildə keçiriləcək seçkilərdə hakimiyyəti yenidən əlində saxlamaq üçün Paşinyana kiçik də olsa bir uğur lazımdır. Ona görə də vəziyyəti gərginləşdirmək üçün çalışır: "Digər bir məsələ Qərb və Ermənistan Azərbaycanla danışıqlarda hər hansı bir üstünlüyə nail olmaq üçün kiçik də olsa bir qələbə qazanmağa çalışırlar. Yəni hesab edirlər ki, ordusuna gətirdiyi Hindistan raketləri və Qərb hərbi texnikaları, Fransanın keçdiyi hərbi təlimlər onlara Azərbaycan üzərində üstünlük qazandırmağa imkan verəcəkdir. Amma çox yanılırlar. Təəssüf ki, Paşinyan da çox yanlış yoldadır. Ermənistan nə qədər silahlansa da, Azərbaycandan güclü ola bilməz. Birincisi ona görə ki, Azərbaycan Ordusu Ermənistandan sayca çoxdur. İkincisi isə, Azərbaycan Ordusunun peşəkarlığı yüksəkdir və öz gücünü təlim meydanlarında yox, birbaşa döyüş meydanında nümayiş etdirib. Müharibədən sonra formalaşdırılmış yeni Komando qoşun növləri qarşısına qoyduğu hər bir hərbi tapşırığı yüksək dəqiqliklə icra etmək qabiliyyətindədir. Üçüncüsü isə, Azərbaycan daha müasir silahlarla silahlanır və mütəmadi keçirilən hərbi təlimlərlə yeni silahlara yiyələnmə qabiliyyətini və peşəkarlığını artırır. Bu baxımdan Qərbin Ermənistanı yenidən revanşizmə hazırlamaq cəhdləri boş xəyallardan başqa bir şey deyil".

Deputat hesab edir ki, əgər Ermənistan Qərbin planlaşdırdığı ssenariyə aldanaraq yenidən təxribatlara əl atarsa, böyük faciə ilə qarşılaşacaq. Çünki Azərbaycan Ordusu Ermənistan tərəfindən hücuma məruz qalarsa, hərbi hədəflər harada olmasından asılı olmayaraq, məhv ediləcək: "Belə ki, legitim hədəflərimiz Ermənistan ərazisində ola bilər və əgər həmin nöqtələrdən ölkəmizə potensial təhlükə yaranarsa, təhlükəsizliyi təmin etmək hüququmuzdur və Ermənistan ərazisi müharibə meydanına çevriləcəkdir. Bu da ermənilərə yeni faciələr gətirəcək və bir dövlət kimi qalıb-qalmamaq məsələsi gündəliyə gələcəkdir".

Azər Badamov vurğulayıb ki, Azərbaycan müharibə istəmir və ona görə də Ermənistana sülh əlini uzadıb. Amma özümüzü müdafiə etmək hüququmuz həmişə qalır və yenidən təhlükəli vəziyyət yaranarsa, bütün resurslarımızdan istifadə olunmaqla suverən ərazilərimizi qoruyacağıq: "Ermənistan unutmasın ki, Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Odur ki, ermənilər kiminlə üz-üzə gəlmək istədiklərini yaxşı düşünməlidirlər. Əgər vəziyyət yenidən gərginləşərsə, Paşinyana 2020-ci ilin noyabrında olduğu kimi, yalvarışlar kömək etməyəcək. Bütün bunları nəzərə alaraq Paşinyan hakimiyyəti regionda yenidən gərginliyi artırmaq əvəzinə sülh müqaviləsi imzalamaq üçün tələblərimizi icra etsə, daha yaxşı olar", - deyə deputat bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qərb gürcü xalqının əmin-amanlıq şəraitində yaşamasına imkan vermir

**Gürcüstanda baş verən hadisələr bu günlər dünyanın diqqət mərkəzindədir. Qonşu ölkədə oktyabrın 26-da keçirilən parlament seçkilərindən sonra siyasi vəziyyət xeyli gərginləşib. Kəskinləşən, tündləşən hadisələrin gedişindən aydın görünən odur ki, Qərb parlament seçkiləri zamanı hakim "Gürcü Arzusu"nun qələbə qazanmasını qəbul etmək istəmir.**




Qərb Gürcüstanda vəziyyəti gərginləşdirmək üçün resurslarını işə salaraq illərdən bəri durulmuş suları çirkli əlləri ilə bulandırır. Bütün iyrənc yollara əl ataraq məkrli məqsədlərinə çatmaq istəyirlər. Gürcü xalqının iradəsinin əleyhinə addımlar atırlar. Bu addımlar isə yalnız xaosa, qarşıdurmaya aparır. Bu günlər qarşıdurma çağırışları ölkənin paytaxtı Tbilisi şəhərini bürüyüb. Qərbin çalğısına züy tutan, yalan vədlərə aldanmış bəzi yerli qüvvələr hüquq-mühafizə orqanları əməkdaşlarına xəsarət yetirirlər, dövlətçilik əleyhinə xoşagəlməz addımlar atırlar. Ölkədəki sabitliyi pozmağa, qarşıdurma yaratmağa çalışırlar.

Oktyabrın 26-da Gürcüstanda parlament seçkilərindən sonra Qərbdən idarə olunan müxalifətin heç bir əsas olmadan nəticələrin ləğv olunması və yeni seçkilərin keçirilməsinə yönəlmiş fəaliyyəti ölkədə artıq qarşıdurma yaradıb, vəziyyəti gərginləşdirib. Bu onu göstərir ki, Qərb əvvəlcədən Gürcüstanda rəngli inqilab ssenarisi hazırlayıb. İndi də hansı yolla olursa-olsun, ssenarini həyata keçirməyə can atır. Gizlin deyil ki, bu qarşıdurmanın başlıca məqsədi mövcud hakimiyyəti devirmək və Gürcüstanda qərbyönlü, Qərbdən idarə olunan, bir növ ələbaxan bir iqtidar komandası formalaşdırmaqdır. Qərbin qan qoxulu bu planları gürcü xalqı tərəfindən qəti şəkildə rədd edilir. Çünki xalq oktyabrın 26-da parlament seçkilərində öz seçimini edib, sözünü deyib. Onun Qərbin fitnəkar planlarına, ssenarilərinə ehtiyacı yoxdur. Gürcü xalqı seçdiyi hakimiyyəti ilə dinclik və əmin-amanlıq şəraitində yaşamaq istəyir. Qərb isə buna imkan vermir, müxtəlif yollar və vasitələrlə xalqın haqq işinə mane olmağa, əngəl yaratmağa çalışır.

Qərbin Gürcüstanda həyata keçirmək istədiyi ssenari dünyaya çoxdan məlumdur. Yaxşı xatırlayırıq ki, 2004-cü il postsovet məkanında, o cümlədən Ukraynada və Gürcüstanda həyata keçirilmiş rəngli inqilablar, habelə 2014-cü ildə Ukraynada baş vermis "inqilab" xalqlara xaosdan, müharibələrdən, dəhşətli dağıntılardan, ölümdən, aclıqdan başqa heç nə vermədi. Yalnız öz maraqlarını güdən Qərb illər sonra yenidən Gürcüstanda "rəngli inqilab" etmək istəyir. Bu "rəngli inqilab"lardan isə müharibə və qan qoxusu gəlir.

Özünü demokratiyanın carçısı kimi qələmə verməyə çalışan Qərb mediası və siyasi dairələr isə ənənələrinə sadiq qalaraq yenə də həqiqətdən uzaq olan informasiyalar yayır, sərsəm bəyanatlar verir, Gürcüstanın inqilabın astanasında olduğu fikirlərini qabardırlar. Gürcüstandakı sabitliyi pozmaq, xaos yaratmaq üçün son zamanlar ABŞ və Avropa İttifaqı (Aİ) davamlı olaraq müxtəlif yollar və vasitələrlə Gürcüstana təzyiqlər göstərirlər. Bu təzyiqlərin nəticəsi olaraq illərdən bəri ölkəyə edilən yardımlar dayandırılıb. Bununla da kifayətlənməyən Qərb bütün giriş qapılarını Gürcüstanın hakimiyyət nümayəndələrinin üzünə bağlayıb. Amma Qərb nə qədər fitnəkarlıq etsə də, Gürcüstan hökuməti dövlətin və xalqın maraqlarını qoruyur. Ona göstərilən müxtəlif təzyiqlərə baxmayan rəsmi Tbilisi güclü iradə nümayiş etdirərək Qərbin diktələrinə boyun əymədən öz yolu ilə addımlayır.

Rəsmi Tbilisi ölkəsində xaos yaratmağa çalışan Aİ-yə üzvlük prosesini dayandırmaq barədə qərar qəbul edib. Baş nazir İrakli Kobaxidze çox aydın şəkildə deyib ki, 2028-ci ilin sonuna qədər Avropa İttifaqına üzvlük məsələsini gündəmə gətirməməyə qərar veriblər. O qeyd edib ki, Avropa İttifaqına üzvlük müzakirələrinin başlanmasından ölkəni təhdid etmək üçün alət kimi istifadə olunur. Təbiidir ki, Gürcüstanın bu düzgün addımı Qərb dairələrini daha da hiddətləndirib. Bu hiddətin nəticəsidir ki, Aİ Gürcüstanda xaos yaradır, "rəngli inqilab" şüarını ortalığa ataraq rəsmi Tbilisiyə təzyiqlər göstərir.

Qərbin bu çirkin planlarının Gürcüstanda reallaşdırılmasında USAID və buna bənzəyən təşkilatlar da fəal iştirak edirlər. Onlar məqsədlərinə çatmaq üçün hər sifətə düşürlər. Çünki bu təşkilatlar Aİ-nin və ABŞ-nin pul kisələrindən asılıdır. Əgər pulları kəsilsə, sahilə atılmış balıqlar kimi, çabalaya-çabalaya qalacaqlar. Ona görə də pulverənlərinin qarşısında necə lazımdırsa quyruq bulayır, atılıb-düşürlər. Hadisələrin gedişi göstərir ki, Qərb əvvəlcədən Gürcüstanda maliyyələşdirdiyi QHT-lər vasitəsilə dövlət içərisində dayaqlarını qurmuş və öz gündəliyini qəbul etdirmək üçün vətəndaş qarşıdırmasına və hətta prosesin vətəndaş müharibəsi həddinə qədər gətirilib çıxarılmasına nail olmuşdu. Qərbin vasitəçiliyi ilə qabaqcadan QHT-çilərdən ibarət manqurt dəstələrinin, LGBT və ifrat liberal sağçı düşərgələrin yaradılması hökumətin işini xeyli çətinləşdirib. Təəssüflər olsun ki, bu gün vacib müzakirə olunanların yerinə gürcü xalqı üçün yad LGBT və ifrat sağçı qüvvələr gündəmdə, ön planda görünür.

Bu günlər Gürcüstanda 2014-cü ilin Ukrayna ssenarisinin təkrarı - küçə döyüşləri ssenarisi, polisə qarşı zorakılıq göstərilməsi kimi qanunsuz hərəkətlər edilir. Gürcüstana Balkan ölkələrindən, Şərqi Avropa və əsasən də Baltik ölkələrindən çoxlu sayda təxribatçı gətirilib və onların arasında silahlıların da olması istisna deyil. Etirazçıların həmin təxribatçı qüvvələr tərəfindən odlu silahla vurulması və sonra bunun Gürcüstan hökumətinin üzərinə atılması ehtimalı da qaçılmazdır.

Hiddət doğuran odur ki, Avropa İttifaqının Gürcüstandakı səfiri özünü canişin kimi aparır. Qərb səfirləri və ölkələri Gürcüstanda demokratik prinsiplər əsasında seçilmiş hökumətə qarşı hibrid müharibəsi aparırlar. Qərb bu gün Çini, Rusiyanı və digər ölkələri belə müharibələr aparmaqda günahlandırır, özü isə açıq və gizli şəkildə Gürcüstanın daxili işlərinə qarışır.

Qərb dövlətləri anlamaq istəmirlər ki, bu ölkədə baş verən hadisələr Gürcüstanın daxili işidir. Kənar qüvvələr və ölkələr bu proseslərə müdaxilə etməməli, demokratik əsaslarla keçirilmiş seçkilərin nəticələrinə hörmətlə yanaşmalı, gürcü xalqının iradəsinin əleyhinə addımlar atmamalıdırlar.

Qərbin Gürcüstanı beynəlxalq hüquqa zidd şəkildə, saxtakarcasına qeyri-sabitliyə sürükləməsini Azərbaycan da qəbul etmir. Gürcüstanda baş verən bu xoşagəlməz hadisələr ümumilikdə regionda sabitliyə, təhlükəsizliyə böyük zərbə vurur. Qərb çirkin niyyətindən, insanlara aclıq, səfalət, ölüm gətirən "rəngli inqilab"larından əl çəkməlidir.

Bütün dünya görür ki, neçə illərdir Ukrayna xalqına Qərb mərkəzlərinin verdiyi vədlər yerinə yetirilmir. Ona görə də bu ölkə indi, sözün əsl mənasında, həm iqtisadi, həm də insan resursları baxımından fəlakətli vəziyyətlə üz-üzədir. Qərbin nəzarətində olan siyasi partiyaların, medianın, QHT-lərin, diplomatların və başqa gözə görünən və görünməyən qüvvələrin Gürcüstanda sabitliyi pozmaq xəttini tutduğu gün kimi aydın görünür. Bu qüvvələrin can atdığı müddətsiz etirazlar 2004-cü ildə sınaqdan çıxarılmış qəbuledilməz bir metoddur. Çünki bu metod xalqlara heç vaxt xoşbəxtlik gətirməyib və gətirməyəcək də. İğtişaşları törətməkdə əsas məqsəd Gürcüstanı zəiflətmək, onu Rusiyaya qarşı sanksiyalara qoşulmağa təhrik etməkdir. Qərbin bu niyyəti, məqsədi gücü xalqının gücü, qüdrəti və qətiyyəti ilə iflasa uğrayacaq. Bu çətin, keşməkeşli günlərdə gürcü xalqı müdriklik nümayiş etdirəcək, heç bir xarici qüvvənin əlində alətə çevrilməyəcək. Qərb unutmasın ki, həqiqətin üstünü yalanlarla ört-basdır etmək mümkün deyil. Haqq-ədalətə qarşı vuruşanlar həmişə məğlubiyyətə məhkumdurlar. Qərbi də Gürcüstanda bu aqibət gözləyir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Ermənistanın yeni avantürası ona çox ağır başa gələcək

**İşğalçı Ermənistan Vətən müharibəsi və ondan sonrakı dövrdə başına gələn fəlakətlərdən bir nəticə çıxarmayıb.**

Son 4 ildə sülh müqaviləsini imzalamağa hazır olduğunu yalnız sözdə ifadə edib, əvəzində silahlanma siyasətini davam etdirən Hayastan açıq-aşkar niyyətini göstərməkdədir. Görünən odur ki, Ermənistan hazırda Fransa və Hindistan kimi ölkələrdən silah idxal etməklə yeni revanşa hazırlaşır.

Azərbaycanın sülh təşəbbüsləri Ermənistan tərəfinin tam əks fəaliyyətləri ilə müşahidə olunur. Fransanın Ermənistanla hərbi əməkdaşlığı isə bölgədə gərginliyin artmasına hesablanıb.

Bu ölkənin müharibə hazırlıqlarını təsdiqləyən digər faktlar da mövcuddur. Öncə Fransa, ardınca Hindistan Ermənistana silah verməyə başladı. "Avropa Sülh Fondu" adı ilə Ermənistana 10 milyon avro vəsait ayrıldı. Araşdırmalar nəticəsində bəlli oldu ki, adı "sülh fondu" olan təşkilatın Ermənistana ayırdığı 10 milyon avro ölkənin silahlı birləşmələrinin maddi-texniki bazasının gücləndirilməsi üçündür.

Digər tərəfdən isə tərəflər arasında sülh müqaviləsinin imzalanması üçün vasitəçilik etmək istəyən ABŞ-nin də Ermənistana hərbi yardımlar etdiyi dəqiqləşdi. Belə ki, faktlar əsasında bəlli oldu ki, rəsmi Vaşinqton yuxarıda sadalanan faktlardan əlavə Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən minihücum pilotsuz təyyarələri, kiçikölçülü minalar və digər döyüş sursatlarını da Hayastana hədiyyə edib.

Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnikanın təhvil verilməsi faktları təsdiqləndi. Əvvəlcə ABŞ tərəfi yayılan məlumatı təkzib etsə də, "Caliber.az" saytının yaydığı videogörüntülər faktı bir daha təsdiqlədi. Belə ki, "Flightradar" qlobal uçuş izləmə xidməti vasitəsilə əldə edilən görüntülərdə aydın şəkildə müşahidə edilir ki, 2-3 avqustda ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə qalxır. ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilir. Daha sonra da ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli miqdarda silah-sursat daşınıb. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir.

Lakin bu da hamısı deyil. ABŞ təbii olaraq bu missiyanı erməni hərbçilərinə həvalə etməyib, bu cihazları idarə edəcək 30-50 nəfər mütəxəssisi də çatdırıb. Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçilər diqqətlə seçilib - onların əksəriyyəti Amerika ordusunda xidmət edən ermənəsilli ABŞ vətəndaşlarıdır. Bundan əlavə, postsovet ölkələrindən ABŞ-yə köçmüş slavyan və qafqazlı insanlardan ibarət şəxsi heyət Ermənistan silahlı bölmələrinin hərbi geyimi ilə təchiz olunub və Ermənistan silahlı qüvvələrinin Zəngəzurdakı hərbi bazasında yerləşdirilib.

Ermənistanın müharibəyə təhrik edilməsi digər faktlarda da əksini tapır. Avropa İttifaqı missiyasının Azərbaycanla sərhəddə yerləşdirilməsini təsadüfi addım hesab edən yoxdur. Xüsusən də Azərbaycan haqda kəşfiyyat məlumatlarının toplanması fonunda belə bir təsadüfi qətiyyən qəbul etmək mümkün deyil. Hər halda fransız generalın sərhədə gəlməsini də turist səfəri kimi dəyərləndirmək olmaz. Üstəlik, Aİ nümayəndələrinin vaxtaşırı sərhəddə peyda olması, binoklla uzaqdan izləmələr aparması da onların seyrə çıxması demək deyil. Bunlar hamısı real faklardır və hər şey göz önündədir.

Heç kimə sirr deyil ki, Qərb, xüsusən də Fransa Ermənistanı Azərbaycana qarşı müharibəyə sürükləyir. Bunun üçün təkcə silah-sursat, hərbi dəstəklə hayların başlarını dumanlandırmaqla kifayətlənmək istəməyən ağaları məkrli planlarını işə salmaq üçün bütün vasitələrə əl atırlar.

Amma Ermənistan anlamır ki, Azərbaycan Ordusu 2020-ci ildə sahib olduğu gücdən qat-qat artığına sahiblənib. Ordunun maddi-texniki bazası ən müasir hərbi texnologiyalarla zənginləşdirilib. Dünya tarixində ilk "smart müharibə" aparan ordunun arsenalında indi elə silah-sursatlar var ki, istənilən savaşda iştirak etmək gücünə sahibdir. Əgər Ermənistan bir daha revanş fikrinə düşərsə, tarixinin ən ağır zərbəsini alacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 2003-2023-cü illərdə ölkə üzrə 3,3 milyondan çox iş yeri açılıb

### Qarabağa və Şərqi Zəngəzura köçən iqtisadi fəal əhalinin 80 faizi işlə təmin edilib

**Danılmaz gerçəklikdir ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində əhalinin bütün təbəqələrinin sosial rifahının yaxşılaşması durur. Dövlət başçısı da bunu dəfələrlə bəyan etmişdir, həm də təkcə bəyan etməmişdir, konkret tədbirlər görmüşdür. Hər il dövlət büdcəsindən sosial sahələrə daha çox vəsaitin ayrılması bunun sübutudur. Bu baxımdan gələn ilin büdcəsi də istisna olmayacaq.**



Aparılan sosial siyasətdə sağlam və əmək qabiliyyətli vətəndaşların məşğulluğunun təmin edilməsi həmişə prioritet kimi müəyyən olunur. Bu da təsadüfi deyil. Çünki yeni iş yerlərinin açılması həm əmək qabiliyyətli əhalinin öz sosial problemlərini həll etməsi, həm də ölkənin iqtisadi göstəricilərinin artması deməkdir.

Dövlət Statistika Komitəsindən (DSK) verilən məlumata görə, cari il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 308,1 min nəfər olmuşdur. Onlardan 5 milyon 25,3 min nəfəri məşğul əhalidir. Cari il noyabrın 1-i vəziyyətinə görə, Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı isə 214,7 min nəfər olmuşdur. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 406,1 manat təşkil etmişdir.

Cari ilin 9 ayında ölkə üzrə 69,6 min yeni iş yeri açılmışdır. Həmin açılmış iş yerlərinin 11,9 faizi yeni yaradılmış, 87,1 faizi mövcud, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılmışdır.

Hesabat dövründə yeni yaradılmış iş yerlərinin 92,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Ölkədə sahibkarlığın inkişafı həm də sosial problemlərin həllinə yol açır. Bunu nəzərə alaraq, əhalinin məşğulluğunu təmin etmək üçün dövlət-özəl sektor iş birliyi proqramı icra olunur. İndiyədək həmin dövlət proqramının icrası sayəsində çox sayda insan öz məşğulluğunu təmin edə bilmişdir.

Azərbaycan hökuməti əhalinin məşğulluğunun təmin edilməsini və işsizliyin azaldılmasını özünün əsas prioritetlərindən biri kimi görür. Məsələn, 2005-ci ildə 2006-2015-ci illəri əhatə edən Məşğulluq Strategiyası, sonrakı dövrdə strategiyanın reallaşdırılması üçün 2 dövlət proqramı (2007-2010-cu illər və 2011-2015-ci illər üzrə) təsdiq edilmişdir. Daha sonra 2019-2030-cu illər üçün yeni Məşğulluq Strategiyası, bu sənədin həyata keçirilməsi üçün 2020-2025-ci illəri əhatə edən Tədbirlər Planı təsdiq edilmişdir.

Dövlət Statistika Komitəsinin 2003-cü ildən başlayaraq açıqladığı hesabatlar göstərir ki, 20 il ərzində ölkədə 3,34 milyonadək yeni iş yeri açılmışdır. DSK-nın məlumatına görə, 2003-cü ilin sonunda ölkə iqtisadiyyatında məşğul əhalinin sayı 3,97 milyon nəfər olmuşdur. Bu o deməkdir ki, son 20 ildə ölkədə 2003-cü ildəki iş yerlərinin sayının 83 faizi qədər yeni iş yeri yaradılmışdır.

2003-2023-cü illərdə ölkədə yeni yaradılan 3 milyon 336,6 min iş yerinin 1 milyon 40,9 mini, yaxud 31,2 faizi hüquqi şəxslər tərəfindən, 1 milyon 551,4 mini (46,5 faizi) fərdi sahibkarlıq subyektlərində, qalan 744,3 mini (22,3 faizi) isə beynəlxalq və yerli layihələr, abadlaşdırma işləri, mövsümi və digər müvəqqəti işlər ilə bağlı yaradılmışdır.

Ölkədə yeni iş yerlərinin illər üzrə dinamikasını izləyəndə aydın olur ki, 2009-2011-ci illər istisna olmaqla, hər il ölkədə 100 mindən çox yeni iş yeri yaradılmışdır. 2010-2014-cü illəri əhatə edən dövrdə ölkədə hər il yeni yaradılan iş yerlərinin sayı 100 min ətrafında olduğu halda, 2016-2020-ci illəri əhatə edən dövrdə bu say hətta 200 mini keçərək 300 minə yaxınlaşmışdır.

DSK-nın məlumatlarına görə, Azərbaycanda işçi qüvvəsinin sayı 2003-cü ilin sonundan 4 milyon 373,5 min nəfərdən 2023-cü ilin sonuna 5 milyon 249,7 min nəfərə yüksəlmişdir. O cümlədən iqtisadiyyatın bütün sahələrində məşğul əhalinin sayı 990,7 min nəfər (3 milyon 972,6 mindən 4 milyon 963,3 minə), iqtisadiyyatın bütün sahələrində muzdla işləyənlərin sayı isə 515,2 min nəfər (uyğun olaraq 1 milyon 226,6 mindən 1 milyon 741,8 minə) artmışdır. Həmin dövrdə işsizlərin sayı isə 400,9 mindən 286,4 minə düşmüş, yəni 113,5 min nəfər azalmışdır.

Bu gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məskunlaşmış iqtisadi fəal şəxslərin 80 faizdən çoxunun məşğulluğu təmin edilmişdir. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisin plenar iclasında - dövlətə məxsus sosial fondların 2025-ci il dövlət büdcələri haqqında qanun layihələrinin müzakirəsi zamanı bildirmişdir. Onun sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda digər şəxslərin də məşğulluğunun təmin olunması istiqamətində tədbirlər görülür.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycan İstanbulda keçirilən "MÜSİAD EXPO" XX Beynəlxalq Ticarət Sərgisində iştirak edib



**Dörd gün davam edən sərgidə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Azərbaycanın 10-a yaxın yerli sahibkarının məhsul və xidmətləri nümayiş olunub.**

KOBİA-nın tədbirdə açılan stendində qida, sənaye, tikinti, bərpaolunan enerji, parfümeriya sahələrində məhsullar və xidmətlər sərgilənib. Stenddə eyni zamanda KOBİA və İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO tərəfindən Azərbaycanın investisiya və ixrac imkanlarına, sahibkarlara göstərilən dəstək və xidmətlərə dair məlumat verilib.

Tədbirdə çıxış edən Türkiyə Prezidenti Ərdoğan hazırda dünyadakı ən böyük problemlərdən olan qeyri-qanuni miqrasiyaya diqqət çəkib. Bildirilib ki, bu gün Türkiyə əksəriyyəti suriyalı olmaqla təxminən 3,5 milyon miqranta evsahibliyi edir. Həmçinin hazırda əksəriyyəti Almaniyada olmaqla, Avropanın müxtəlif ölkələrində 6 milyondan çox türk yaşayır və bu ölkənin iqtisadiyyatına mühüm töhfələr verir.

Bu ilin sonunadək Türkiyənin milli gəlirinin 1 trilyon 331 milyard dollara çatacağının gözlənildiyini deyən ölkə başçısı zəlzələ bölgəsinin bərpası və yenidən qurulması üçün indiyədək təxminən 72 milyard dollar məbləğində vəsaitin xərcləndiyini bildirib.

Qeyd edək ki, bu il "Qlobal ticarət burada" devizi altında keçirilən sərgidə 19 ölkə 300-dən çox şirkət tərəfindən təmsil olunub.

## Gəncədə keçirilən əmək yarmarkasında 300-ə yaxın vakansiya təqdim olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Gəncə-Daşkəsən Regional Məşğulluq filialı Gəncədə işsiz və işaxtaran şəxslər üçün növbəti əmək yarmarkası keçirmişdir.**



Gəncə Dövlət Milli Dram Teatrının binasında təşkil edilən yarmarkada YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini, Gəncə şəhəri üzrə məşğulluğa kömək göstərən əlaqələndirmə komitəsinin sədri Adil Tağıyev, Dövlət Məşğulluq Agentliyinin Gəncə-Daşkəsən Regional Məşğulluq filialının nümayəndələri, həmçinin idarə və müəssisə rəhbərləri iştirak etmişlər.

Yarmarkada çıxış edənlər diqqətə çatdırmışlar ki, belə əmək yarmarkaları işsiz əhalinin məşğulluğunun təmin edilməsində xüsusi rola malikdir və tədbirin əsas məqsədi işsiz və işaxtaran vətəndaşların əmək bazarına çıxışını dəstəkləməkdir.

Əmək yarmarkasında 30 müəssisə tərəfindən 300-ə yaxın vakansiya təqdim edilmişdir. Müraciət edənlərə işəgötürənlər tərəfindən müvafiq vakansiyalara dair ətraflı məlumat verilmiş, 131 nəfər işsiz və işaxtaran rəsmi qeydiyyatdan keçmişdir. Vakansiyalara müraciət edən digər şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilmiş, uyğun namizədlər növbəti mərhələyə dəvət olunmuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## SES ən sərfəli alternativ enerji mənbəyidir

### Təkcə işğaldan azad olunmuş ərazilərimizdə 30-dan çox su-elektrik stansiyası istifadəyə verilib

**Hazırda bərpaolunan enerjinin ən çox günəş və külək kimi mənbələrindən bəhs olunsa da, bu enerjinin bir sıra digər növləri də var. Hidroenerjinin potensialı xüsusilə böyükdür. Ölkəmizdə bu enerji növünün inkişafı üçün perspektivlər kimi, təcrübə və ənənə də mövcuddur.**

Azərbaycanda alternativ enerji mənbələrinin daha geniş istifadəsi məhz Mingəçevir Su-Elektrik Stansiyasının (SES) tikintisi ilə başlamışdır. Kür çayı üzərində qurulan Mingəçevir SES 1954-cü ildə istifadəyə verilmişdir. Üç il sonra isə həmin su qovşağı qurğuları kompleksinə daxil olan Varvara SES istismara buraxılmışdır. 1970-ci ildə Araz, 1976-cı ildə Tərtər, 1982-ci ildə Şəmkir SES-ləri tikilmiş və fəaliyyətə başlamışdır.

Bu gün ölkəmizdə enerji sisteminin ümumi qoyuluş gücünün 14,6 faizi su-elektrik stansiyalarının payına düşür. Hazırkı enerji keçidi dövrü isə bərpaolunan enerji stansiyalarının, o cümlədən SES-lərin sayının artırılmasını tələb edir.

Məlum olduğu kimi, yerli su ehtiyatlarımızın 25 faizə qədəri Qarabağda və Şərqi Zəngəzurda formalaşır. Bu da həmin iqtisadi rayonlarda su-elektrik stansiyalarının tikilməsi və işləməsi üçün geniş imkan yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin bir neçə ay əvvəl imzaladığı "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında" sərəncamında da həmin məsələ öz əksini tapıb. Sənəddə deyilir: "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatları potensialından istifadə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından və hidroenerji potensialından "ağıllı su" sistemlərinin tətbiqi ilə rasional istifadə təmin ediləcəkdir. 28 su-elektrik stansiyasının tikintisi başa çatdırılacaq, yerüstü suların hidroenerji potensialı qiymətləndirilərək su-elektrik stansiyaları, o cümlədən su təsərrüfatı obyektlərinin imkanları nəzərə alınmaqla kompakt enerji stansiyası yaradılacaqdır".

44 günlük Vətən müharibəsində qazanılan Qələbədən sonra görülən işlər deməyə imkan verir ki, bu sahədə də qarşıya qoyulan vəzifələr yerinə yetiriləcək. Belə ki, Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su-elektrik stansiyası istismara verilib və 492 milyon kilovat-saat sıfır emissiyalı elektrik enerjisi istehsal edilib. Bununla da 110 milyon kubmetr təbii qaza qənaət olunub, 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısı alınıb.

Dövlət başçısının bu enerji obyektlərinin əksəriyyətinin açılışında iştirak etməsi onların önəminə bir daha diqqət çəkir. Sözügedən ərazilərin təkcə iki bölgəsində fəaliyyətə başlayan stansiyaların adlarını xatırlayaq. 2022-ci il iyunun 26-da 4,4 meqavat gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası (KSES) yenidən qurulduqdan sonra bu rayonda ilk istehsal obyekti olaraq istismara verildi. "Kəlbəcər-1"dən başqa, rayonda 5 yerdə yenidən qurulan 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su-elektrik stansiyalarının Prezident İlham Əliyevin iştirakı ilə işə salınması gerçəkləşdi. Qeyd edək ki, sözügedən bu 6 KSES-də 70 milyon kilovat-saatdan çox ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edilib.

"Azərenerji"nin məlumatına görə, rayonda bu il istismara verilməsi planlaşdırılan növbəti obyektlər 4,3 meqavat gücündə "Zar", 8,8 meqavat gücündə "Nadirxanlı", 8,6 meqavat gücündə "Aşağı Vəng" və 22,5 meqavat gücündə "Yuxarı Vəng" su-elektrik stansiyalarıdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfər çərçivəsində Tərtər çayı üzərində yerləşən "Azərenerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su-Elektrik Stansiyasının açılışında iştirak ediblər. İşğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətindəki strategiyaya uyğun olaraq Tərtər çayı üzərində yerləşən bu stansiya



Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti beş il ərzində rayonun elektrik enerjisi tələbatını tam ödəyə bilər.

"Yuxarı Vəng" SES-də il ərzində 66 milyon kilovat-saatadək "yaşıl enerji"nin istehsal olunması nəzərdə tutulur. Bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib.

Zəngilan su-elektrik stansiyaları silsiləsi də dörd enerji obyektindən ibarətdir. Bunlar "Sarıqışlaq", "Şayıflı","Zəngilan" və "Cahangirbəyli" SES-lərdir. Prezident İlham Əliyev keçən il sentyabrın 28-də "Cahangirbəyli" Su-Elektrik Stansiyasının açılışında iştirak edib. Belə ki, hələ 2022-ci ilin payız aylarında "Azərenerji" ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində dörd yerdə hər birinin gücü 10,5 meqavat, ümumi gücü 42 meqavat olan SES silsiləsinin tikintisinə başlanılmışdı.

Bu dörd stansiyanı su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Eni 450, uzunluğu 250 metr olan qurğunun su tutumu 400-450 min kubmetrə bərabərdir. Bu qurğunun yaradılması enerji istehsalından əlavə, kənd təsərrüfatı və ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Baş suqəbuledicinin tikilməsi 30 il müddətində çirklənən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə də yardım edəcək.

Baş suqəbuledicidən çayın suyunun 35 faizi məcrasında saxlanılmaqla 23 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib. Borudan çıxan su təkrar çaya buraxılır. "Cahangirbəyli" SES-in ətrafında 8 mindən çox ağac əkilib.

Bu il mayın 18-də dövlət başçısı "Zəngilan" və "Şayıflı" su-elektrik stansiyalarının açılışını edib. Hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan "Zəngilan" və "Şayıflı" SES-lər üçün maşın zalları tikilmişdir. "Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq ekoloji cəhətdən təmiz enerji istehsal edən "Zəngilan" və "Şayıflı"da rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəetmə təmin olunmuşdur. Bunun üçün mikro SCADA sistemi yığılmış, 25 kilometr məsafədə yüksəkgərginlikli yeni elektrik verilişi xətləri və 24 damarlı optik kabel xətti çəkilmişdir.

Oktyabrın 3-də isə Prezidentimiz "Sarıqışlaq" Su-Elektrik Stansiyasının açılışında iştirak etdi. "Sarıqışlaq" SES-də tikilən maşın zalında çayda su azalarkən özünü avtomatik dayandıra bilən iki ekoturbin quraşdırılıb ki, bu turbinlər Oxçuçayın ekoloji axımından iki dəfə artıq suyun çayda saxlanılmasını təmin edir.

Stansiyada 110 kV-luq açıq paylayıcı qurğu tikilib. Bu qurğu nəinki "Sarıqışlaq" SES-də, eyni zamanda "Şayıflı" SES-də də istehsal olunan "yaşıl enerji"nin sistemə ötürülməsi funksiyasını icra edir. Burada həm yarımstansiya, həm də bütövlükdə su-elektrik stansiyası rəqəmsal avadanlıqlarla təchiz edilərək avtomatik idarəetmə sistemi ilə təmin olunub."Sarıqışlaq"da il ərzində 33 milyon kilovat-saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur.

Xatırladaq ki, "Sarıqışlaq" SES-in də daxil olduğu 4 SES-dən ibarət 42 meqavatlıq Zəngilan silsiləsi işğaldan azad edilən ərazilərdə yaradılan ən böyük silsilədir.

Prezident İlham Əliyevin regionun "yaşıl enerji" zonası barədə qəti mövqeyinin nəticəsi kimi ölkə enerjisistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionları mövcud su-elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib. Burada elektrik enerjisi tələbatı tam həcmdə "yaşıl enerji" hesabına həyata keçirilir. Ümumilikdə isə "Azərenerji" tərəfindən Qarabağda və Şərqi Zəngəzurda istismara verilən 270 meqavat gücündə 32 su-elektrik stansiyasında hava şəraitindən asılı olan digər alternativ enerji mənbələrindən fərqli şəkildə 24 saat fasiləsiz "yaşıl enerji" istehsal edilir.

"Yaşıl enerji"yə keçidin sürətləndirilməsi, atmosferə atılan karbon qazının miqdarının azaldılması, təbii qaza qənaət, ekoloji cəhətdən təmiz enerji istehsalı üçün bir çox ərazidəki kimi işğaldan azad olunmuş rayonlarda da kompleks işlər davam edir. Bu layihələrin hər biri BMT-nin iqlim dəyişmələri ilə mübarizə və "yaşıl enerji"yə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətlidir. Başqa sözlə, bunlar Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilir və ölkəmizin "yaşıl enerji "inkişafına sadiqliyini göstərir. Üstəlik, bu stansiyaların istər tikintisi, istərsə də fəaliyyəti zamanı yüzlərlə insanın, o cümlədən keçmiş məcburi köçkünlərin məşğulluq problemi həll olunur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Bakı bulvarı - 115

# Dənizkənarı Milli Park - milli mədəniyyətimizin ən qiymətli parçasından biri



**Bakı şəhərinin özünəməxsus tarixi-memarlıq xüsusiyyətləri zaman-zaman ölkəmizə gələn turistləri heyran edib. 115 yaşlı Dənizkənarı Milli Park isə paytaxtımızın ümumi görkəminə xüsusi yaraşıq verir. Məhz elə buna görə də şəhər sakinlərinin ən çox üz tutduqları məkan da buradır. Çünki sakinlərin əylənmələri, istirahət etmələri, vaxtlarının səmərəli keçirmələri üçün Milli Parkda hərtərəfli şərait yaradılıb. Bu gözəl məkanı böyüklərlə bərabər uşaqlar da çox sevirlər. Çünki onların şənlənmələri üçün burada növbənöv əyləncə yerləri yaradılıb.**

Dənizkənarı Milli Parkın maddi mədəniyyət tariximizdə xüsusi yerinin olması hamımızı sevindirir. Şəhərimizin sakinləri bu gözəl məkanı qısaca olaraq "bulvar" adlandırırlar. Gəlin əvvəlcə bu sözün nəyi ifadə etdiyinə aydınlıq gətirək. Fransız mənşəli olan bu söz "sahil boyunca gəzinti zolağı" anlamını verir. Şəhərlərə gözəllik verən bulvarlar demək olar ki, dünyanın bütün ölkələrində yaradılıb. Çünki şəhərlər bulvarsız yaraşıqsız görünür. Tarixini vərəqlədikcə öyrənirik ki, ilk bulvar XVII-XVIII əsrlərdə Qərbi Avropada yaradılıb. Sonra zaman keçdikcə bu ənənə bütün dünyaya yayılıb, insanlar tərəfindən böyük sevgi və rəğbətlə qarşılanıb.

## Bakı bulvarının ilk mühəndislərindən biri azərbaycanlı memar olub

Bakı bulvarının yaranmasının olduqca maraqlı tarixi var. Bu gün zövq ala-ala gəzdiyimiz Dənizkənarı Milli Park XX əsrin əvvəllərindən yaranmağa başlayıb. Daha dəqiq desək, 115 il əvvəl - 1909-cu ildə Xəzərin Bakı sahili və o zaman rus imperatoru II Aleksandrın adını daşıyan sahil küçəsi arasında yaşıllıq zolağı - bulvar salınıb. Bakı bulvarının yaradılması bilavasitə dənizkənarı sahilin nizamlanması ilə bağlı olub.

Çox xoş və qürurludur ki, sahil zolağında ilk mühəndis işləri azərbaycanlı memar Qasımbəy Hacıbababəyov tərəfindən aparılıb. Görkəmli memar hələ 1862-ci ildə bütün sahil boyunca anbarların tikilməsi üçün layihə hazırlayıb. 1867-ci ildə həmin yerə su kəməri çəkilib, fəvvarə quraşdırılıb və yeni tikililər inşa olunub. Bu tikililər bulvarı daha da yaraşıqlı göstərib, insanların diqqətini bu məkana cəlb edib.

XIX əsrin ikinci yarısında əsasən iqtisadi məqsədlər üçün istifadə olunan ensiz sahil zolağında həmin dövrdə ölkəmizdə fəaliyyət göstərən müxtəlif şirkətlərin anbarları və körpüləri yerləşib. O vaxtlar sahil zolağı iki hissəyə ayrılırmış: qərbdə Aleksandrovski, şərq istiqamətində isə Petrovski sahili. İki istiqamətə ayrılmış zolaq isə vahid sahil küçəsinin salınması işini bir az çətinləşdirirmiş. 1865-ci ildə Bakının hərbi qubernatoru və mülki hissə idarəsinin rəisi general-leytenant M.P.Kolyubakinin xahişi ilə şəhəri dəniz sahilindən ayıran köhnə qala divarının sökülməsinə icazə verilib. Qeyd edək ki, həmin vaxtdan sahil boyunca yeni evlərin tikintisinə də başlanılıb.

Bakı şəhərinin daim inkişafda olması, əhali sayının getdikcə artması, Xəzərin səviyyəsinin aşağı enməsi, qala divarları söküldükdən sonra şəhərin dənizə doğru genişlənməsi sahil zolağının yenidən qurulmasına təkan vermişdir. Bu vacib məsələnin müsbət həll olunması üçün XIX əsrin sonunda sahil zolağının nizamlanması və bulvarın salınması ilə bağlı müxtəlif uğurlu layihələr hazırlanmışdır. Amma təəssüflər olsun ki, bulvarın salınması məsələsi Bakı Şəhər Duması tərəfindən dəfələrlə müzakirə olunsa da, maliyyələşdirilməmişdir. Elə bu səbəbdən həllini gözləyən vacib məsələ uzun müddət icra olunmamışdır.

## İstedadlı mühəndis Hacınski çıxışı ilə deputatları fikrindən döndərdi

Nəhayət ki, illər sonra bu vacib məsələnin həlli üstünə gün işığı düşür. 1909-cu ildə Bakı bulvarının gələcəyi üçün mühüm layihələrin həyata keçirilməsi istiqamətində real addımlar atılır. Bakı Şəhər İdarəsinin (Bakı şəhərinin keçmiş yerli idarəetmə orqanı) tikinti şöbəsinin rəhbəri, istedadlı mühəndis Məhəmməd Həsən Hacınski böyük çətinliklə, 1909-cu il aprelin 7-də Bakı Şəhər Dumasının iclasında Dənizkənarı bulvarın tikintisi ilə bağlı məsələnin müzakirəyə çıxarılmasına nail olur. Dumada bu işin zərurəti ilə bağlı məruzə edir. Hacınskinin məruzəsi 9 aprel 1909-cu ildə "Kaspi" və "Bakı" qəzetlərində çap edilir. Onun çıxışı ictimaiyyət tərəfindən də müsbət qarşılanır.

M.H.Hacınski çıxışında bulvarın salınmasının zəruriliyini şəhərdəki Mixaylovski bağının əhalinin asudə vaxtını keçirməsi üçün darısqallıq etdiyini, bu məqsədlə geniş bir yerin ayrılmasının vacib olduğunu deputatların nəzərinə çatdırır və bu mühüm işin ölkənin büdcəsinə xeyli əlavə vəsait gətirəcəyini xüsusi vurğulayır. Qeyd edir ki, yeni salınacaq Dənizkənarı bulvarda çiçək və sərinləşdirici su köşkləri şəhər büdcəsinə ayda 4-6 min rubl mənfəət gətirəcək. Bununla da Hacınski deputatları layihənin iqtisadi cəhətdən səmərəli olduğuna inandırmağı bacarır. Yalnız bundan sonra Bakı Şəhər Duması bulvarın salınmasının əhəmiyyətini nəzərə alaraq bu layihənin icrasına 10 min rubl vəsait ayırır. Beləliklə, M.H.Hacınskinin bu məruzəsi Duma tərəfindən razılıqla qarşılanır və Bakı Şəhər İdarəsinə layihənin tezliklə həyata keçirilməsi tövsiyə olunur. Məlumat üçün onu da qeyd edək ki, Hacınskinin layihəsi bulvarın tarixində o vaxta qədər maliyyələşdirilmiş ilk sənəddir.

Verilən məlumatlara görə, M.H.Hacınskinin rəhbərliyi ilə Bakı bulvarının salınması işlərində məşhur memar Adolf Eyxler də fəal iştirak etmişdi. Bulvarın şəhərin dəniz fasadı olduğunu nəzərə alaraq, sahilə daha yaxşı görkəm verəcək möhtəşəm tikililər ucaltmaq məqsədilə müsabiqə elan olunur. Elan olunmuş bu müsabiqəyə şəhərin 30 tanınmış memarı da qoşulur. Onların arasında Zivərbəy Əhmədbəyov, Ploşko, Edel kimi istedadlı mütəxəssislər də olur.

Beləliklə, çox keçmir ki, bulvarın tikintisinə başlanılır. Xatırladaq ki, ilk bulvarın ərazisi "Daşkörpü"dən (indiki Azneft meydanından) "Qafqaz və Merkuri" şirkətinin körpüsünə (A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasına) kimi olan yeri əhatə edirmiş.






Maraqlı faktlardan biri də odur ki, 1917-ci ilə qədər Dənizkənarı bulvarda "Fenomen" kinoteatrı, şəhər çimərliyi və Bakı Dəniz Aviasiyası məktəbi də fəaliyyət göstərirmiş. sovet dövrü adlandırdığımız illərdə Dənizkənarı bulvar daha da abadlaşdırılmış, həm də genişləndirilmişdi. 1930-cu illərdə sahildəki bir sıra körpülər sökülmüş və yalnız bundan sonra bulvarın ikinci hissəsinin tikintisinə start verilmişdi. Abdulla Şaiq adına Kukla Teatrından Bülbül prospektinədək olan ərazidə xeyli abadlıq işləri aparılmışdı. Abadlıq işləri nəticəsində Bakı bulvarı daha da gözəlləşmişdi. Şəhər sakinlərinin istirahəti və əylənməsi üçün burada əlverişli şərait yaradılmışdı.

1936-1938-ci illərdə Bakı bulvarının inkişafı istiqamətində yeni addımlar atılır. Bu illər ərzində artıq əks istiqamətdə - Azneft meydanından köhnə "İnturist" mehmanxanasına kimi olan ərazidə işlər tamamlanır. Burada həmçinin yaşıllaşdırma və quruculuq işləri də həyata keçirilir. Uğurla həyata keçirilən abadlıq işləri Bakı bulvarının görkəmini xeyli dəyişir.

## Ümummilli Liderin hakimiyyətə gəlişi ilə bulvarın qurulmasının yeni mərhələsi başlayır

Sonrakı illərdə də Dənizkənarı bulvarın ərazisi genişləndirilir və nəzərəçarpacaq abadlıq işləri aparılıb. 1950-1960-cı illərdə şəhər sakinlərinin rahatlığını təmin etmək məqsədilə bulvarda "Mirvari" kafesi, "Bahar" və S.Vurğun adına yay kinosalonları, "Venesiya" su şəhərciyi və başqa istirahət guşələri tikilir. 1967-ci ildə tanınmış memar Mikayıl Hüseynov Dənizkənarı bulvarın yenidən qurulması üçün layihə hazırlayır.

1969-cu il Bakı bulvarının tarixinə böyük hərflərlə yazılıb. Ümummilli Lider Heydər Əliyev həmin il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra bulvar yeni inkişaf mərhələsinə qədəm qoyub. 1970-ci illərdə respublikada və Bakı şəhərində yaşıllaşdırma və abadlaşdırma işlərinin genişləndirilməsinə başlanıb. Yaşıllaşdırma çərçivəsində Dənizkənarı bulvarda da geniş yenidənqurma işləri aparılıb. Bulvar şərq və qərb istiqamətlərində daha da genişləndirilərək uzunluğu 3,7 kilometrə çatdırılıb.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkə həyatının başqa sahələrində olduğu kimi, Dənizkənarı bilvarın abadlığı da böhran vəziyyətinə düşmüşdü. Bu xoşagəlməz proses bulvarda baş verən dağıntılarla, burada insanların istirahətinə əngəl yaradan onlarca obyektin tikilməsi, onların təsiri və Xəzərin səviyyəsinin qalxması səbəbindən qiymətli ağac növlərinin məhv olması ilə nəticələnmişdi. Həmin illərdə demək olar ki, bulvarda heç bir abadlıq işləri aparılmamışdır.

Xalqına, Vətəninə böyük sevgi bəsləyən, Dənizkənarı bulvara ölkənin mədəniyyəti, tarixinin qiymətli bir parçası kimi dəyər verən Ümummilli Lider Heydər Əliyev 1998-ci il dekabrın 29-da bulvara Milli Park statusu verilməsi haqqında fərman imzalamışdı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 2001-ci il tarixli 132 nömrəli qərarına əsasən, Dənizkənarı Milli Park ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri sırasına daxil edilmişdir. Bütün bunlar Bakı bulvarının inkişafında, genişləndirilməsində və abadlaşdırılmasında mühüm addımlar olmuşdur.

## Prezidentin fərmanı ilə Dənizkənarı Bulvar İdarəsi yaradıldı

Dənizkənarı bulvarın təbii landşaftının bərpası, onun tarixi simasının saxlanılması, ərazisinin zəngin florasının inkişaf etdirilməsi, bulvarın mühafizə olunması, burada sosial-mədəni tədbirlərin həyata keçirilməsi kimi vacib işlərin müsbət həllini təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci il yanvarın 10-da Dənizkənarı Bulvar İdarəsinin yaradılması haqqında fərman imzaladı. İmzalanan bu fərmandan sonra Dənizkənarı Milli Parkın əsaslı şəkildə abadlaşdırılmasına və yenidən qurulmasına başlanıldı. Qısa müddət ərzində aparılan abadlıq işləri nəticəsində parkın yaşıllıq zolağı xeyli genişləndirildi. Burada yeni ağac və gül növləri əkildi. Onların arasında olan ekzotik bitkilər (palmalar, Argentinadan gətirilmiş baobablar, Meksikadan gətirilmiş kaktuslar və s.) bulvarın gözəlliyini daha da artırdı. Ərazidə yeni attraksionlar və kino nümayişi ilə bağlı məkanlar da yaradıldı. Şəhər sakinlərinin istirahətini, rahatlığını daha səmərəli təşkil etmək məqsədilə Milli Parkda özünəməxsus istirahət növü olan dəniz gəzintisi də uğurla həyata keçirilir.

Milli Parkın ərazisinin genişləndirilməsi və inkişafı daim Azərbaycan Prezidentinin diqqət mərkəzindədir. Ölkəmizdə keçirilən "Avroviziya" Musiqi Yarışması ərəfəsində Dənizkənarı Milli Parkın ərazisinin Bakı İdman Sarayından Dövlət Bayrağı Meydanına qədər uzadılması işləri tamamlandı. Hazırda şəhər sakinlərinin ixtiyarına verilən yeni bulvarın ərazisi 1,8 kilometr, sahəsi 17,26 hektardır. Çox sevindiricidir ki, bu ərazidə tarixi və dövlət əhəmiyyətli məkanlar yaradılıb, tikintilər aparılıb. Dövlət Bayrağı Meydanı, Dövlət Bayrağı Muzeyi və "Avroviziya" müsabiqəsinin keçirildiyi idman-əyləncə kompleksi olan Bakı Kristal Zalı da bu məkanların sırasına daxildir.

2015-ci ildə I Avropa Oyunları ərəfəsində bulvarın iki istiqamətdə genişləndirilməsi işi başa çatdı. Birinci istiqamət Dövlət Bayrağı Meydanından (Daş Salnamə Muzeyinin qarşısından) Bibiheybət istiqamətində genişləndirilən "Bayıl bulvarı", digər istiqamət isə Dəniz Ticarəti Limanından "Bulvar" hotelə kimi uzadılan "Ağ Şəhər" Bulvarıdır. Bakı "Ağ Şəhər" Bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 34,6 hektardır. "Bayıl bulvarı"nın uzunluğu 9,2 kilometr, sahəsi 123, 394 hektardır. Yeni bulvar ərazisində aparılan yenidənqurma və abadlıq işləri nəticəsində müxtəlif istirahət və iaşə obyektləri ilə yanaşı, müasir mədəniyyət obyektləri də inşa edilib. Hazırda Bakı bulvarının ərazisi 215.164 hektar olmaqla, uzunluğu 16,7 kilometrdir. Qərblə Şərqin memarlıq elementlərini özündə birləşdirən Dənizkənarı Milli Parkda tikinti və abadlıq işləri bu gün də uğurla davam etdirilir.

## Dənizkənarı Milli Park beynəlxalq mükafata layiq görülüb

Dənizkənarı Milli Park füsunkarlığına və rahatlığına görə bir sıra mükafatlara layiq görülüb. Getdikcə gözəlləşən və ərazisi genişlənən Milli Parkımız Niderlandda Beynəlxalq Böyük Şəhər Parkları mükafatına layiq görülüb. Bakı şəhərinin əvəzsiz incilərindən olan, maddi mədəniyyətimizin həm tarixi, həm də müasir simasını özündə əks etdirən Dənizkənarı Milli Park unikal təbii kompleks kimi dünyada bu sahə üzrə ən mötəbər mükafatlardan olan "International Large Urban Parks Award" (Beynəlxalq Böyük Şəhər Parkları Mükafatı) mükafatının qalibi elan edilib.

Şəhərlərdə parkların idarə edilməsi və dayanıqlı inkişafı, şəhər ərazisinin yaşıllaşdırılması və təbiətinin mühafizəsi sahəsində nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatı olan Ümumdünya Şəhər Parkları Təşkilatı (World Urban Parks Organization) tərəfindən təsis edilən mükafatın qalibləri şəhər parklarının idarə olunmasının keyfiyyəti, səmərəliliyi və dayanıqlılığı, sosial, iqtisadi, ekoloji əhəmiyyəti və s. meyarlar əsasında keçirilən müsabiqə əsasında müəyyən edilir. Dənizkənarı Milli Park öz bənzərsiz ünikallığı, ekoloji və ictimai əhəmiyyəti, saxlanması və qorunması sahələrində xüsusi göstəricilərinə görə ən yüksək nəticəni göstərməklə mükafatın qalibi adına layıq görülüb.

Mükafat Dənizkənarı Bulvar İdarəsinin nümayəndə heyətinə bu il 23-26 sentyabr tarixlərində Niderland Krallığının Utrext şəhərində keçirilən "Future Green City Congress" beynəlxalq konfransında təqdim olunub.

İqlim dəyişikliyi və ətraf mühitin mühafizəsi ilə bağlı ölkəmizin COP29 kimi mötəbər tədbirə evsahibliyi etməsi ərəfəsində Dənizkənarı Milli Parkın ekoloji sağlam mühitinin və effektiv idarə edilməsinin beynəlxalq səviyyədə qiymətləndirilməsi onun estetik gözəlliyi, şəhər mədəniyyətində tutduğu yeri, davamlılıq prinsiplərinə sadiqliyi ilə yanaşı, həm də parkın beynəlxalq miqyasda daha çox tanınmasında mühüm rol oynadı.

Dənizkənarı Milli Parkın ərazisi həm şəhər sakinlərinin, həm də qonaqların ən sevimli yerlərindən biridir. İnsanlar burada çox rahat istirahət edir, dincəlir, əylənir, bir sözlə, vaxtlarını səmərəli keçirirlər.





*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

*Akademik Nizami CƏFƏROV:*

# "Ortaq türk əlifbası türk dünyasına uğurlu inteqrasiyanın göstəricisidir"

**"Ortaq türk əlifbası türk dillərini birləşdirmək deyil, onları mədəni cəhətdən yaxınlaşdırmaq məqsədi daşıyır. Bu məsələnin müzakirə olunması faktının özü də türk dünyasında gedən inteqrasiya proseslərinin uğurunun göstəricisidir".**




Bu fikri AZƏRTAC-a müsahibəsində 21-ci Ankara Kitab Sərgi-Yarmarkasının fəxri qonağı elan edilmiş Azərbaycan Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov bildirib.

Onun sözlərinə görə, türk dillərinin hər biri özünəməxsus şəkildə gözəl, orijinal və bənzərsizdir. "Bu dillərin formalaşması yüz illər əvvələ gedib çıxır. Buna görə də məsələ dilləri birləşdirməkdə deyil, onları yaxınlaşdırmaqdadır. Əgər müxtəlif türk ölkələrinin sakinləri ortaq əlifbanın hərflərindən istifadə etsələr, anlaşma çox asanlaşar", - deyə alim hesab edir.

Akademik türk dövlətlərinin yaxınlaşmasında Beynəlxalq Türk Akademiyasının, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY), Türk Mədəniyyəti və İrsi Fondunun mühüm töhfələrini də diqqətə çatdırıb.

Eyni zamanda o, türk dünyasında əməkdaşlıq üçün ən böyük məsuliyyət daşıyan ölkələrdən biri kimi Türkiyənin adını çəkib.

"Bu gün biz ayrı bir türk dövləti quruluşunun ortaq ideyaların aparıcısına çevrildiyinin şahidi oluruq" deyən akademik Türkiyə Dilçilik Cəmiyyətinin türk dillərinin yaxınlaşdırılması istiqamətindəki təşəbbüslərini misal çəkib.

O, professor Şahin Mustafayevin rəhbərlik etdiyi Beynəlxalq Türk Akademiyasının da bu istiqamətdə səylərini yüksək qiymətləndirib.

N.Cəfərovun fikrincə, türk xalqlarının yaxınlaşmasında növbəti mərhələ terminologiya və orfoqrafiya qaydalarının uyğunlaşdırılması, yəni birləşdirilməsi ola bilər.

"Türk dövlətləri praktiki olaraq inteqrasiya istəklərini nümayiş etdirirlər. Çoxsaylı sərgidə birgə iştirak da bu istiqamətdə səylərin daha bir göstəricisidir", - deyə akademik əlavə edib.

# Parisdə azərbaycanlı rəssamların "Dayanıqlı baxış: daha yaşıl gələcək naminə incəsənət" adlı sərgisi açılıb



**Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində "Dayanıqlı baxış: daha yaşıl gələcək naminə incəsənət" adlı sərgi açılıb.**

Sərginin açılış mərasimində çıxış edən səfir Leyla Abdullayeva Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasının əhəmiyyətindən danışıb. Bildirib ki, bu sərəncam Azərbaycanın ekoloji problemlərin həllinə sadiqliyini əks etdirir və iqlim dəyişikliyinin aradan qaldırılması üzrə qlobal səylərdə ölkəmizin böyük rol oynadığını vurğulayır. Həmçinin iqlim dəyişikliyi ilə daha fəal mübarizə aparmaq məqsədi daşıyır.

Leyla Abdullayeva diqqətə çatdırıb ki, səfirliyin təşkil etdiyi bu sərginin məqsədi ekoloji problemlər haqqında məlumatlılığı artırmaq və Azərbaycanın davamlı gələcəyə sadiqliyini vurğulamaqdır. Təqdim olunan əsərlər Azərbaycanın zəngin mədəni irsindən və müxtəlif təbiət mənzərələrindən ilhamlanaraq yaradılıb. Bu əsərlər vasitəsilə ətraf mühitin mühafizəsini təbliğ edən və Azərbaycanın təbiət mənzərələrinin gözəlliyini tərənnüm edən mesajlar verilir.

Tədbirdə çıxış edən rəssamlar Xanlar Əsədullayev və Çinarə Bakşiyev-Qafarova bildiriblər ki, Parisdə dünyanın diqqətini iqlim dəyişikliyi, təbiətin qorunması və yaşıl dünyanın vacibliyinə yönəltmək üçün bir araya gəlmək böyük əhəmiyyət daşıyır. Sərgidə nümayiş olunan əsərlər Azərbaycan təbiətinə və mənzərələrinə həsr olunub. Bu sənət əsərləri insanın təbiətlə harmoniya içində yaşamasının mümkünlüyünü və vacibliyini vurğulayır. İqlim dəyişikliyi bütün dünyaya təsir edən bir çağırışdır.

Qeyd olunub ki, COP29 kimi beynəlxalq tədbir də bu mübarizədə qlobal həmrəyliyin zəruriliyini xatırladır. Beynəlxalq tədbirlər vasitəsilə Azərbaycan incəsənəti dünya miqyasında təqdim edilməklə yanaşı, təbiətin qorunması ilə bağlı ümumbəşəri çağırışlara da səs verilir. Təbiəti qorumaq və ona sevgi ilə yanaşmaq hər birimizin missiyasıdır.

Tədbirdə qonaqlar rəssamların yaradıcılıq prosesini kəşf etmək və əsərlərində əksini tapan ekoloji mövzuları araşdırmaq üçün onlarla ünsiyyət qurmaq imkanı əldə ediblər. Bu interaktiv təcrübə zəngin müzakirələrə, eləcə də incəsənət və ətraf mühit haqqında məlumatlılığın daha yüksək qiymətləndirilməsinə kömək edib.

Sərgidə Xalq rəssamı Sakit Məmmədovun, eləcə də Xanlar Əsədullayev, Aqşin Kazımov, Nihad Ağazadə, Çinarə Bakşiyeva-Qafarova, Mahir Qafarov, Aynur Məmmədova və Məryəm Abdullanın əsərləri nümayiş olunub.

# COP29-un həmrəylik rəngləri




COP29
Baku
Azerbaijan




# 36 il əvvəl ölən heyvan klonlaşdırılıb

**Bu gün dünyada milyonlarla canlı növü mövcud olsa da, onların yüzlərlə qatı müxtəlif səbəblərə görə məhv olub. Günümüzdə də bir çox növ tükənmə təhlükəsi ilə üzləşir. Tədqiqatçılar bunun qarşısını almaq üçün var gücləri ilə çalışırlar. Bu cəhdlərdən biri mühüm nəticə verib.**




"Scientific American"nın məlumatına görə, alimlər daha əvvəl dondurularaq saxlanılan toxumalardan istifadə edərək tükənmə təhlükəsi ilə üzləşən qaraayaqlı gəlincikləri (dələlər fəsiləsinə aid heyvan cinsi) klonlamağı bacarıblar. Bu nailiyyət tükənməkdə olan növlərin genetik müxtəlifliyini qorumaq və gələcək nəsillərin varlıqlarının davam etdirilməsi üçün mühüm addım kimi qiymətləndirilir.

Klonlamada istifadə olunan genetik material 1988-ci ildə ölmüş çoxalma qabiliyyəti olmayan bir gəlinciyin toxumasından əldə edilib. Xüsusilə bu toxumanın istifadə olunmasının səbəbi onun hazırda yaşayan gəlinciyin genetik müxtəlifliyindən 3 dəfə çox olmasıdır.

Klonlama uğurla başa çatdırılsa da, yeni doğulan körpələr məhdud çoxalma qabiliyyətinə malik olduqları üçün problem tamamilə həll olunmayıb. Bundan sonrakı işlər klon balaların genetik müxtəlifliyini artırmaq və bu müxtəlifliyi gələcək nəsillərə ötürmək üzərində cəmləşəcək.

## Oksigen istehsal edən "yarpaq"

**Böyük Britaniyanın Kral İncəsənət Akademiyasının məzunu olan gənc alim Culian Melçiorri adlı tələbə yarpaqların fotosintez yolu ilə oksigen istehsaletmə prosesini təqlid edən ipək material hazırlayıb.**

"İpək yarpaq" adlı material ipək proteinindən hazırlanmış matrisdən, başqa sözlə, çoxsaylı bioloji prosesin baş verdiyi cansız maye mühitin içinə yerləşdirilmiş xloroplastlardan, yəni fotosintez prosesini həyata keçirən orqanoidlərdən ibarətdir.



"İpək yarpaq" yüngül və az enerji sərf etməsi səbəbindən Mars kimi planetlərdə koloniyalar qurulması prosesində və uzunmüddətli kosmik missiyalarda astronavtlara oksigen mənbəyi kimi dəstək ola bilər. Onun başqa bir tətbiq sahəsi şəhər əraziləridir. Culian Melçiorri bu materialın xüsusilə bina fasadlarında və havalandırma sistemlərində istifadə edilərək şəhərlərdə hava keyfiyyətini artırmağa kömək edə biləcəyini qeyd edib.

## Gecələri də Günəş işıqlandıracaq



**ABŞ-nin "Reflect Orbital" şirkəti tətbiq vasitəsilə gecə vaxtı istənilən ərazini günəş işığı ilə işıqlandırmağı planlaşdırır. Şirkət bu məqsədi həyata keçirmək üçün kosmosa nəhəng ölçülü əksetdirici güzgülər göndərəcək.**

Yerin orbitində xüsusi bir peykə yerləşdiriləcək güzgülər həmin peyk vasitəsilə idarə edilərək günəş işığını seçilmiş bölgəyə yönləndirəcək. Bunu həyata keçirmək üçün istifadəçilərin mobil tətbiq vasitəsilə fəaliyyət göstərən bir sistemdən istifadə etmələri tələb olunur.

İstifadəçilər xəritə üzərində istədikləri nöqtəni seçərək koordinatları daxil edib həmin bölgənin günəş işığı ilə işıqlandırılmasını təmin edəcəklər. Yeni texnologiya enerji istehsalı və istehlakı sahəsində inqilabi bir həll kimi qəbul edilir. Xüsusilə gecə saatlarında enerji tələbatının yüksək olduğu bölgələrdə bu sistem enerji çatışmazlığını aradan qaldırmağa kömək edə bilər.

## Adamyuyan maşın

**Yaponiyanın "Science" şirkəti "Mirai Ningen Sentakuki" adlı inqilabi cihaz hazırlayıb.**

Daxili kresloya sahib adamyuyan maşının kabinəsi ilk olaraq su ilə doldurulur. İnnovativ cihaz avtomatik olaraq suyun temperaturunu tənzimləyir, istifadəçinin ürək döyüntüsünü və digər biometrik göstəriciləri ölçür, xoş atmosfer yaratmaq üçün kabinənin şəffaf qapağının içərisinə şəkil proyeksiya edir.



Unikal məhsul 2025-ci ilin aprelində Osakada keçiriləcək sərgidə təqdim olunacaq. Ziyarətçilər əvvəlcədən vaxt ayırmaqla stenddə 15 dəqiqəlik seansdan yararlana biləcəklər.

## Gözəllik filtrlərinə qadağa

**"TikTok" yeni təhlükəsizlik tədbirlərini açıqlayıb. Artıq 13 yaşdan kiçik şəxslər bu sosial platformada qeydiyyatdan keçə bilməyəcək, 18 yaşdan aşağı istifadəçilər isə üz filtrindən istifadə edə bilməyəcəklər. Məhdudiyyət əyləncəli filtrlərə deyil, yalnız gözəllik filtrlərinə tətbiq ediləcək.**



Bu tədbirlər "TikTok"un Böyük Britaniya mərkəzli "Internet Matters" adlı qeyri-kommersiya təşkilatı ilə birgə apardığı araşdırma əsasında həyata keçirilir. Tədqiqatın məqsədi effekt və filtrlərin gənclərə potensial zərərini nəzarət altına almaqdır. Hesabatda gözəlləşdirici filtrlərin idealizə edilmiş fotoları normallaşdırdığı, platformadakı gənclər arasında sosial təzyiq yaratdığı və onların psixi sağlamlığına mənfi təsir göstərdiyi qeyd edilib.

## "Apple"dan smart qolbaq

**"Apple" şirkəti daha bir texnologiyanı patentləşdirib. Patent sənədi şirkətin 2021-ci ildən hazırladığı texnologiyanı əks etdirir. Söhbət istifadəçinin əl jestlərini təyin edə bilən smart qolbaqdan gedir.**

Patent sənədində qeyd edilmiş məlumata əsasən, bu cür smart qolbaq əl jestlərini hətta istifadəçinin qolbağa toxunmadığı halda belə təyin edə bilər. Bu funksiyanın əldə edilməsi üçün cihazın kəmərinin müəyyən hissələrində elektrodların yerləşdirilməsi təklif edilib.



Elektromioqrafiya üsulu sayəsində əzələlərin və vətərlərin aktivliklərinin təyini nəzərdə tutulub. Əzələ və vətər aktivlikləri siqnallarının emal edilməsi isə onların jestlərə çevrilməsinə imkan verir. Elektrodlara sahib kəmər "Apple"ın smart saatlarında da istifadə edilə bilər.

## Üzü görmədən tanıyan kamera




**Hazırda mövcud olan təhlükəsizlik kameraları insanları sima vasitəsilə tanıyır. "Apple" bu texnologiyanı daha da irəli səviyyəyə aparmağı hədəfləyir.**

Şirkətin yeni patentinə əsasən, təhlükəsizlik kameraları şəxsləri üzlərini görmədən də müəyyənləşdirə biləcək.

Sistem üz tanıma yolu ilə şəxsiyyəti təsdiqlənmiş insanların bədən xüsusiyyətlərini yaddaşına qeyd edəcək. Bu xüsusiyyətlər arasında geyimlərin tanınması və bədən formasının öyrənilməsi kimi bacarıqlar da var.

Məlumatlar təhlükəsizlik kamerasının yaddaşında müxtəlif müddətdə saxlanılacaq. Məsələn, geyim məlumatları yalnız bir gün saxlanıla bilər, amma bədən forması ilə bağlı məlumatlar daha uzun müddət yaddaşda qalacaq. Sistem eyni zamanda insanların yerimə tərzi kimi hərəkət izlərini də təhlil edə biləcək.

Yeni kameralar 2026-cı ildə istifadəçilərə təqdim ediləcək.

*Ü.XASPOLADOVA, "Azərbaycan"*

# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Qarabağ və Şərqi Zəngəzurun bərpası gələn il də prioritet olacaq
İqtisadi inkişaf sosial məqsədlərə xidmət edir
Ermənistan silahlanmanı dayandırmasa...
Xalqımızın birliyi, dövlətimizin gücü, Liderimizin qətiyyəti ilə hesablaşmalı olacaq
Bu ərazilərin bərpasına ayrılacaq ümumi vəsaitin həcmi 23 milyard manata çatacaq
COP29-un qərarları Paris İqlim Sazişinin tam icrasını təmin edəcək
Qlobal istiləşmənin qarşısını yalnız beynəlxalq həmrəyliklə almaq mümkündür
Cəbrayıl növbəti sakinlərinə qovuşdu
Azərbaycanda əhalinin elə təbəqəsi yoxdur ki, dövlətin sosial tədbirlərindən kənarda qalsın
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

**1 Dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür**

# Dünyanı bürüyən mərəz

**Dövrümüzün qorxulu xəstəliklərindən biri uzunmüddətli gedişə malik Qazanılmış İmmun Çatışmazlığı Sindromudur (QİÇS). Xəstəliyə səbəb olan virus orqanizmin müdafiəsində rol oynayan mühüm hüceyrələri zədələyərək immunitet sistemini məhv edir, onu digər infeksiyalar qarşısında "silahsız" qoyur. Bununla da yoluxmuş şəxsin orqanizmi o qədər zəifləyir ki, adi soyuqdəyməyə qarşı belə müqavimət göstərə bilmir.**




Dünyada milyonlarla insan QİÇS-dən əziyyət çəkir. Xəstəlik ilk dəfə 1981-ci il iyunun 5-də Amerikada Xəstəliklər Üzərində Nəzarət Mərkəzi tərəfindən aşkar edilib. Ölkəmizdə İİV-infeksiyasının ilk dəfə aşkar edildiyi 1987-ci ildən 2024-cü ilin III rübünün sonunadək Respublika QİÇS-lə Mübarizə Mərkəzində 10108 İİV-lə yaşayan Azərbaycan vətəndaşı rəsmi qeydiyyata alınıb. Onlardan 7026-sı kişi, 3082-si isə qadındır.

1988-ci ildən etibarən isə hər il dekabrın 1-i Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qeyd edilir. Həmin günün beynəlxalq səviyyədə keçirilməsi xəstəliklə mübarizədə dünya ölkələrinin səylərinin birləşdirilməsinə xidmət edir.

### QİÇS İİV-infeksiyasının sonuncu mərhələsidir

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədovun sözlərinə görə, İİV infeksiyası insanın immunçatışmazlığı virusları tərəfindən törədilən və immun sistemin getdikcə artan zədələnməsi ilə xarakterizə olunan infeksion xəstəlikdir: "Xəstəliyin gedişində 4 mərhələ ayırd edilir. Bu mərhələlərdən asılı olaraq, infeksiyaya yoluxan şəxslərdə müxtəlif kliniki simptomlar müşahidə olunur. İlkin mərhələdə ümumi halsızlıq, tez yorulma, limfa düyünlərinin böyüməsi, periodik olaraq hərarətin yüksəlməsi, daha sonrakı mərhələlərdə isə dəri və daxili orqanların göbələk mənşəli zədələnmələri, vərəmə xas əlamətlər, bədxassəli şişlər kimi ağırlaşmalar qeyd olunur. QİÇS isə Qazanılmış İmmunçatışmazlığı Sindromu adlanaraq, İİV-infeksiyasının sonuncu mərhələsidir. Bu mərhələdə İİV-ə yoluxmuş şəxslərdə artıq immun sistemin daha proqressiv zədələnməsi müşahidə edilir və xəstələrdə çoxsaylı ağırlaşmalar - vərəm, MSS-in zədələnməsi, mədə-bağırsaq sistemində patologiyalar, bədxassəli şişlər inkişaf edir".

Famil Məmmədov qeyd edib ki, xəstəliyə, əsasən cinsi yolla, İİV tərkibli qan və onun preparatlarının köçürülməsi nəticəsində, İİV-ə yoluxan donorun orqanlarının transplantasiyası zamanı, infeksiya ilə çirklənmiş tibbi, gigiyenik və kosmetoloji ləvazimatlardan istifadə etməklə yoluxmaq mümkündür. Xəstəlik, həmçinin infeksiyaya yoluxmuş anadan uşağa hamiləlik dövründə cift vasitəsilə, doğuş zamanı və ana südü ilə qidalanma nəticəsində keçir.




### Müayinələr konfidensiallıq qorunmaq prinsipi ilə aparılır

İİV-ə yoluxan şəxslərin müalicəsinin antiretrovirus terapiya adlandığını bildirən mərkəz direktoru bildirib ki, müalicə Respublika QİÇS-lə Mübarizə Mərkəzində Ümumdünya Səhiyyə Təşkilatının son tövsiyələrinə müvafiq olaraq xüsusi rejimlər əsasında aparılır: "ARV preparatlarla təminat dövlət tərəfindən ödənişsiz, konfidensial qaydada həyata keçirilir. Xəstələrdə İİV infeksiyası diaqnozu təsdiqləndikdən sonra onlar dispanser nəzarətə götürülərək antiretrovirus terapiyaya cəlb olunurlar. İlk olaraq pasiyentlərlə həkim infeksionistlər, psixoloqlar tərəfindən məsləhətləşmələr aparılır, individual yanaşma ilə, yəni hər bir xəstənin yaşı, çəkisi, müayinə nəticələri, ağırlaşmaları, yanaşı xəstəlikləri və sairə nəzərə alınaraq müalicə sxemləri təyin olunur. Dərmanların qəbul qaydası, müalicəyə sadiqlik, fasiləli müalicənin fəsadları, monitorinq müayinələrinin vacibliyi barədə mütəxəssislər tərəfindən ətraflı məlumat verilir".

Respublika QİÇS-lə Mübarizə Mərkəzində qeydiyyatda olan və regionlarda yaşayan İİV-ə yoluxan şəxslərin müalicəyə əlçatanlığının təmin olunması məqsədilə antiretrovirus preparatların təminatı regional İİV laboratoriyaları tərəfindən həyata keçirilir. Famil Məmmədov vurğulayıb ki, müayinələr Bakıda yerləşən mərkəzlə yanaşı, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, 12 regional laboratoriyalarda və könüllü müayinə məntəqələrində aparılır. İİV-ə müayinələr anonim qaydada, ödənişsiz, konfidensiallıq qorunmaq prinsipi ilə həyata keçirilir.

### Profilaktik tədbirlər barədə maariflənmək vacibdir

Digər region ölkələri ilə müqayisədə Azərbaycanda İİV infeksiyası ilə xəstələnmə göstəricisi olduqca aşağıdır. Famil Məmmədov bildirib ki, Səhiyyə Nazirliyinin daim nəzarəti sayəsində Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən aparılan məqsədli fəaliyyət ölkədə İİV-infeksiyasının yayılmasını illər ərzində təmərküzləşmiş mərhələdə saxlamağa imkan verib.

Ümumilikdə, İİV-ə yoluxmamaq üçün insanların İİV/QİÇS mövzusunda, profilaktik tədbirlər barədə maariflənməsi çox vacibdir. "Profilaktika müalicədən daha yaxşıdır" şüarını unutmamaq lazımdır.

"Riskli davranışlardan çəkinmək, qoruyuculardan istifadə, zərərli vərdişlərdən uzaqlaşmaq, gigiyenik qaydalara əməl olunması İİV-ə yoluxmanın qarşısının alınması üçün əsas tədbirlərdir. Təmasdan öncə (TÖP) və təmasdan sonra profilaktika (Postkontakt profilaktika) barədə də hər kəs məlumatlanmalıdır. Uzun müddətdir ki, ölkədə risk qrupları arasında təmasdan öncə profilaktika həyata keçirilir. TÖP İİV-ə yoluxmamış şəxslərin İİV-lə yaşayan insanlarla kontaktından öncə virusa yoluxmasının qarşısını almağa yönəldilmiş antiretrovirus preparatının sxem üzrə qəbulundan ibarətdir. Xüsusilə qeyd etmək istərdim ki, təmasdan öncə profilaktikanın əhatə dairəsi artıq ölkədə bütün risk qrupları arasında genişləndirilib. Postkontakt profilaktika isə artıq uzun illərdir ölkədə uğurlu şəkildə həyata keçirilir. İİV-li şəxslərlə, təsadüfi, qorunmamış təmasdan sonra, şpris ucluqları batan zaman, həmçinin, İİV-ə yoluxmuş biomateriallarla tibbi zədələnmə baş verdikdə yoluxmanın qarşısının alınması üçün Respublika QİÇS-lə Mübarizə Mərkəzinə müraciət etmək tövsiyə olunur. Qeyd edim ki, burada vacib məqam ondan ibarətdir ki, təmasdan sonra profilaktika 72 saat ərzində həyata keçirilməlidir. Bu məqsədlə, şəxslərin 72 saatdan gec olmayaraq müraciət etmələri tövsiyə olunur", - deyə mərkəz direktoru qeyd edib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4207
Sifariş 2739
Qiyməti 60 qəpik